RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 171 (8764) ÇƏRŞƏNBƏ AXŞAMI, 17 avqust 2021-ci il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az





# İlham Əliyevdən növbəti xəbərdarlıq

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında olublar









Avqustun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında olublar.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı və birinci xanım Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində, Murovdağda inşa olunacaq tunelin təməlini qoyub, Kəlbəcər Kiçik Su-Elektrik Yarımstansiyasında görülən işlərlə tanış olublar. Daha sonra 110/35/10 kilovoltluq "Kəlbəcər" yarımstansiyasının açılışını ediblər.

Səfər çərçivəsində dövlətimizin başçısı Kəlbəcər-Laçın avtomobil yolu üzərində inşa olunacaq tunelin və Laçın Beynəlxalq Hava Limanının təməlini qoyub.

Daha sonra Prezident İlham Əliyev Kəlbəcər şəhərində dövlət bayrağını ucaldıb və burada çıxış edib.

Sonra Prezident İlham Əliyev Kəlbəcər şəhərindəki "N" saylı hərbi hissədə yaradılan şəraitlə tanış olub. Kəlbəcərə səfəri zamanı dövlət başçısı "İstisu" Sanatoriyasında da olub, Kəlbəcər-Laçın rayonunun Minkənd yolunun çəkilməsi işlərinə baxıb.

*Səfərdən geniş hesabat qəzetin növbəti nömrəsində dərc ediləcək.*



## Azərbaycan yenidən Ermənistanın dərsini verməyə hazırdır

"...18 ilə yaxındır ki, Prezidentəm və bütün bu illər ərzində deyirdim ki, nəyin bahasına olursa-olsun biz torpaqlarımızı azad etməliyik və edəcəyik..."

Baş sərkərdəmiz İlham Əliyevin qürur və fəxarətlə avqustun 14-də qardaş Türkiyənin nüfuzlu telekanalı "CNN Türk" televiziya kanalından bütün dünyaya bəyan etdiyi kimi, artıq bütün xalqımız illərdir həsrətində olduğu bu xoşbəxtliyin sevincini yaşayır.

30 il idi ki, Ermənistan beynəlxalq hüququn bütün norma və prinsiplərinə zidd olaraq Azərbaycan torpaqlarını işğal etmiş, yüz minlərlə həmvətənimizi öz dədə-baba torpağından didərgin salmışdı.

Ötən illər ərzində vandal xislətli düşmən zorla qəsb etdiyi ərazilərimizdə daşı-daş üstündə qoymayıb, yurdlarımızı viranəyə çevirib, milli-mənəvi dəyərlərimizə, dinimizə qarşı dözümsüzlük, düşmənçilik nümayiş etdirərək qanunsuz şəkildə illərlə işğal altında saxladığı torpaqlarımızda xalqımıza məxsus bütün dini ocaqları, məscidləri, məzarlıqları, tarixi, mədəni abidələri dağıdıb.

Beynəlxalq birliyin Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə bağlı təsirli addım atmaması, xüsusilə ATƏT-in Minsk qrupunun bu illər ərzində nümayiş etdirdiyi səmərəsiz fəaliyyət nəticəsində isə Ermənistan torpaqlarımıza qarşı daha iştahla iddia irəli sürür, sərhədlərimizdə davamlı təxribatlara əl atırdı.

*Ardı 3-cü səh.*

## Vaksinasiya prosesinin aparılmasında əsas məqsəd əhalini pandemiyadan qorumaqdır

Koronavirusla bağlı dünyanın müxtəlif ölkələrindən verilən gündəlik məlumatlar yenə təşviş doğurur. Bu təhlükəli virusa yoluxma və ölüm sayı artır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, artıq dünyada COVID-19-a yoluxanların ümumi sayı 208 milyona yaxınlaşır. 4 milyon 374 mindən çox insan isə bu xəstəlikdən həyatını itirib.



Virusa yoluxma sayına görə ilk beşliyin birinci pilləsini ABŞ tutub. Sonrakı sıralarda Hindistan, Braziliya, Rusiya və Fransa dayanıb. Sərhəd qonşularımız arasında COVID-19-a ən çox yoluxma ardıcıl olaraq Rusiya, İran və Türkiyədə qeydə alınıb.

Koronavirusa yoluxma və ölüm hallarının artmasını, vəziyyətin gündən-günə kəskinləşməsini nəzərə alaraq qonşu İranda avqustun 16-dan 22-dək ölkə ərazisində sərt karantin elan edilib. Hökumətin qərarına əsasən, bir həftə ərzində özəl və dövlət müəssisələri, banklar, bazarlar və ticarət mərkəzləri bağlanacaq. Təcili tibbi yardım, ərzaq və yanacaq daşıyan avtomobillərdən başqa, digər nəqliyyat vasitələrinin hərəkəti qadağan ediləcək.

İranda hər gün yüzlərlə pasiyent virusdan həyatını itirir. Virusa yoluxanların ümumi sayı isə 4 milyon 425 mini ötüb. Bu xəstəlikdən ölənlərin sayı 98 minə yaxınlaşıb.

*Ardı 5-ci səh.*

## İndoneziya Respublikasının Prezidenti zati-aliləri cənab Coko Vidodoya

Hörmətli cənab Prezident!

İndoneziya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda dost İndoneziya xalqına öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

Azərbaycan-İndoneziya dostluq və əməkdaşlıq əlaqələri xoş ənənələrə malikdir. İnanıram ki, qarşılıqlı etimad və dəstəyə əsaslanan münasibətlərimizin həm ikitərəfli, həm də çoxtərəfli qaydada, xüsusən də İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində müvəffəqiyyətlə davam etdirilməsi üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İndoneziya Respublikasına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 avqust 2021-ci il*

# Azərbaycan və Türkiyənin xarici işlər nazirləri Əfqanıstanda sülhməramlılarımızın hazırkı durumunu müzakirə ediblər

Avqustun 16-da Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər bölgədə mövcud olan cari vəziyyət və ikitərəfli əməkdaşlıq gündəliyi üzrə fikir mübadiləsi aparıblar.

Telefon danışığı zamanı tərəflər həmçinin Əfqanıstanda Türkiyə və Azərbaycan sülhməramlılarının birgə fəaliyyəti, bu missiyanın hazırkı durumunu müzakirə ediblər.




## *Müdafiə Nazirliyi:* Naxçıvan istiqamətində mövqelərimiz atəşə tutulub

Avqustun 16-sı saat 09:30-dan etibarən Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən yaşayış məntəqəsində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini avtomat və pulemyotlardan istifadə edərək atəşə tutmağa başlayıblar.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusunun şəxsi heyəti arasında itki yoxdur.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

## Ermənistan tərəfinin Qaragöl ətrafında Azərbaycan Ordusu bölmələrinin, guya, təxribat törətməsi barədə yaydığı məlumat yalandır

Ermənistan tərəfinin dövlət sərhədi istiqamətində Qaragöl ətrafında Azərbaycan Ordusunun bölmələrinin, guya, təxribat törətməsi və bir hərbçimizin həlak olması barədə yaydığı məlumat yalandır.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildiriblər. "Qarşı tərəf bu kimi yalan məlumatlarla törədə biləcəyi diversiyalarına zəmin yaratmağa cəhd göstərir", - deyə nazirliyin açıqlamasında qeyd olunub.

## Kəlbəcər istiqamətində mövqelərimiz atəşə tutulub

Ermənistan silahlı qüvvələrinin bölmələri avqustun 16-sı saat 18:45-dən 19:30-dək Basarkeçər rayonunun Zərkənd yaşayış məntəqəsində yerləşən mövqelərindən Kəlbəcər rayonunun Yuxarı Ayrım yaşayış məntəqəsi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini fasilələrlə müxtəlif çaplı atıcı silahlardan atəşə tutublar.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun şəxsi heyəti arasında itki yoxdur. Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

## Hazırda Azərbaycan sülhməramlılarının həyatı üçün təhlükə yoxdur

Kabil Beynəlxalq Hava Limanının Azərbaycan sülhməramlılarının mühafizə və müdafiə etdikləri sektorunda hazırda gərginlik mövcud deyil.

Şəxsi heyətin həyatı üçün heç bir təhlükə yoxdur. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bölgədə mövcud gərgin vəziyyətdən asılı olmayaraq, Azərbaycan Ordusunun 120 nəfərdən ibarət sülhməramlı bölməsi Türkiyə qüvvələri ilə birlikdə hava limanının təhlükəsizliyinin təmin olunması məqsədilə xidməti vəzifələrinin icrasını davam etdirir.

## Azərbaycanın müdafiə naziri Türkiyəyə səfərə gedib



Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın dəvəti ilə İstanbulda keçiriləcək "IDEF - 2021" Beynəlxalq Müdafiə Sərgisində iştirak etmək üçün qardaş ölkəyə yola düşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general-polkovnik Zakir Həsənov "IDEF-2021" Beynəlxalq Müdafiə Sərgisində nümayiş etdirilən müxtəlif şirkətlərin istehsalı olan silah, texnika və hərbi təyinatlı vasitələrə baxış keçirəcək.

Səfər çərçivəsində müdafiə nazirinin bir sıra görüşləri planlaşdırılır.

## Qəbələ rayonunun Solquca kəndi yaxınlığında meşə yanğınının söndürülməsi üçün zəruri tədbirlər davam etdirilir

Qəbələ rayonunun Solquca kəndi yaxınlığındakı mürəkkəb relyefli dağlıq ərazidə baş vermiş meşə yanğınının genişlənməsinin qarşısının alınması və söndürülməsi istiqamətində Fövqəladə Hallar Nazirliyi (FHN) tərəfindən zəruri və təxirəsalınmaz tədbirlər davam etdirilir.

FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ərazidə əsasən kol-kos və qismən ağaclar yanır.

Nazirliyin Dövlət Yanğından Mühafizə Xidməti, Mülki müdafiə qoşunları və Şimal-qərb Regional Mərkəzinin müvafiq qüvvələri, həmçinin Aviasiya dəstəsinin 2 helikopteri yanğının söndürülməsi istiqamətində əməliyyatları davam etdirirlər. Yanğınsöndürmə işlərinə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları və bir qrup yerli sakin cəlb olunub.

Relyefin mürəkkəbliyi və mütəmadi güclənən küləkli hava şəraiti ilə müşayiət olunan çətin əməliyyat şəraitinə baxmayaraq, yanğınla mübarizə tədbirləri fasiləsiz davam etdirilir.



# FHN-in Türkiyədəki yanğın-xilasetmə qüvvələrinin bir hissəsi Vətənə qayıdıb





Türkiyədə meşə yanğınlarının söndürülməsi və daha geniş miqyas almasına imkan verilməməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Fövqəladə Hallar Nazirliyinin (FHN) qardaş ölkədəki yanğın-xilasetmə qüvvələrinin üzvlərindən ibarət bir qrup avqustun 16-da Vətənə qayıdıb.






AZƏRTAC xəbər verir ki, 165 nəfərdən ibarət yanğın-xilasetmə qrupunun üzvlərini Heydər Əliyev Beynəlxalq Aeroportunda FHN-in nümayəndələri və KİV təmsilçiləri qarşılayıblar.

FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinin bölmə rəisi polkovnik-leytenant Məhəmməd Xəlilli jurnalistlərə müsahibəsində birinci qrupun tərkibində Bakıya artıq 165 nəfərin qayıtdığını bildirib: "Biz Türkiyənin Muğla vilayətində yanğınların söndürülməsində iştirak etmişik. On gün ərzində yanğınların söndürülməsində yüksək fədakarlıq göstərərək ölkəmizi layiqincə təmsil etdik. Türkiyədə yanğınların söndürülməsinə Azərbaycandan 93 texnika, 743 şəxsi heyət cəlb olunmuşdu. Yanğınlar çətin relyefli, dağlıq və meşəlik ərazilərdə baş versə də, onun söndürülməsi tapşırığının öhdəsindən gələ bildik. Bu, bizim üçün böyük təcrübə oldu. Qardaş ölkədə yanğınları canımız bahasına da olsa söndürməli idik. Bu, Azərbaycan Prezidentinin tapşırığı idi. Yanğınsöndürmə işlərində türkiyəli mütəxəssislərlə birgə fəaliyyət göstərdik. Çox şükür ki, yanğınların söndürülməsi zamanı əməkdaşlarımızdan xəsarət alan olmadı".

FHN-in yanğın-xilasetmə qüvvələrinin digər üzvləri də yanğınsöndürmə texnikası ilə birlikdə Azərbaycana yola salınıb.

Xatırladaq ki, qardaş ölkədə baş verən meşə yanğınlarının söndürülməsində FHN-in 743 əməkdaşı iştirak edib. Bundan başqa, 97 texnika, o cümlədən 77 yanğınsöndürmə, 6 nasos avtomobili, 1 yanacaqdoldurma çəni, 4 qərargah avtomaşını, 2 avtobus və 1 pikap, eləcə də köməkçi texniki vasitələr, "BE-200ÇS" tipli amfibiya təyyarəsi və 1 helikopter Türkiyədə meşə yanğınlarının söndürülməsinə cəlb edilmişdi. Azərbaycan yanğınsöndürənləri qardaş ölkədə yanğınların qarşısının alınmasında əsl fədakarlıq göstəriblər.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Avqustun 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberqerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, ölkələr arasındakı qarşılıqlı əlaqələrdən bəhs edən Ali Məclisin Sədri Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinin muxtar respublika ilə əməkdaşlıqdakı fəaliyyətini qeyd edib. Ali Məclisin Sədri diqqətə çatdırıb ki, bu illər ərzində təhsil, iqtisadiyyat, kənd təsərrüfatı istiqamətində bir sıra uğurlar əldə olunub, qarşılıqlı layihələr həyata keçirilib. "İcma Quruculuğu Təşəbbüsləri Proqramı" çərçivəsində "Naxçıvan Muxtar Respublikasında Qadınların İqtisadi Səlahiyyətlərinin Artırılması" adlı layihənin həyata keçirildiyini xatırladan Ali Məclisin Sədri nümayəndə heyətinə layihənin həyata keçirilməsinə görə təşəkkür edib.

Səmimi qəbula və xoş sözlərə görə minnətdarlıq edən səfir Örl Litzenberqer Naxçıvan Muxtar Respublikasına səfərinin əhəmiyyətini vurğulayıb. Ailəsi ilə birlikdə Naxçıvana səfər etdiyini qeyd edən diplomat Amerika Birləşmiş Ştatları ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqələrin inkişafı istiqamətində səylərini artıracağını bildirib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

## Müdafiə Nazirliyi Ermənistan tərəfinin yaydığı dezinformasiyalara münasibət bildirib

Azərbaycan Ordusunun bölmələrinin Naxçıvan Muxtar Respublikası istiqamətində, guya, atəş açması nəticəsində erməni hərbi qulluqçunun həlak olması barədə Ermənistan tərəfinin yaydığı məlumat dezinformasiyadır.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildiriblər. "Qeyd etdiyimiz kimi, bu gün saat 09:30-dan etibarən məhz Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Ordusunun Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətindəki mövqeləri atəşə tutulub.

Bildiririk ki, qarşı tərəfin yalan məlumatlar yaymaqda məqsədi daxildə yaranan münaqişə zəminində erməni hərbi qulluqçusunun güllələnməsi faktını ört-basdır etməkdir", - deyə nazirliyin açıqlamasında qeyd olunub.

## Dövlət Komitəsində xaricdə yaşayan bir qrup azərbaycanlı ilə görüş keçirilib

Diasporla İş üzrə Dövlət Komitəsində xaricdə yaşayan bir qrup azərbaycanlı ilə görüş keçirilib.



Komitədən AZƏRTAC-a bildirilib ki, qurumun rəhbəri Fuad Muradov iştirakçıları salamladıqdan sonra Azərbaycan diasporunun fəaliyyətindən söz açıb, xaricdə yaşayan azərbaycanlıların təşkilatlanmasını, diaspor nümayəndələrinin həm müharibə, həm də müharibədən sonrakı dövrdə beynəlxalq platformalarda gördükləri işləri yüksək qiymətləndirdiyini bildirib.

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunan ərazilərdə aparılan bərpa-quruculuq işləri barədə görüş iştirakçılarına ətraflı məlumat verilib, 30 il işğal altında qalan torpaqlarımızda törədilmiş vəhşiliklərin, yaşayış məskənlərinin xarabalığa çevrilməsinin, milli-mədəni irsin məhv edilməsinin dünya ictimaiyyətinə çatdırılmasında diasporun müstəsna xidmətlərindən danışılıb. Bildirilib ki, hər bir diaspor nümayəndəsi informasiya daşıyıcısıdır və onların işğaldan azad olunan torpaqlarımıza səfərlərinin təşkili məhz bu baxımdan xüsusi əhəmiyyətə malikdir.

Diaspor nümayəndələrinin beynəlxalq informasiya platformalarında fəaliyyəti, dünya ictimaiyyətinin məlumatlandırılmasında əvəzsiz xidmətləri barədə fikir mübadiləsi aparılıb, diaspor işinin effektivliyinin artırılmasına, birlik modelinə dair təkliflər səsləndirilib, onların Komitə və Azərbaycan Diasporuna Dəstək Fondu ilə sistemli işləmələrinin vacibliyi diqqətə çatdırılıb.

Bu yayı vətəndə keçirən və Komitənin təşkilatçılığı ilə Qarabağa təşkil olunan səfərlərdə iştirak etməyə hazırlaşan diaspor nümayəndələri öz növbələrində diaspora göstərilən diqqət və qayğıya, eləcə də diasporun işğaldan azad olunan torpaqlarımıza mütəmadi səfərlərinin təşkilinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Sonda diaspor nümayəndələrini maraqlandıran suallara cavab verilib.

Qeyd edək ki, görüşdə 21 ölkədən diaspor nümayəndələri iştirak ediblər.

## Gədəbəydə gənc könüllülərin iştirakı ilə keçirilən kurslar başa çatmışdır

Bununla bağlı keçirilən görüşdə çıxış edənlər ölkədə gənclər siyasətinin uğurla həyata keçirilməsindən, könüllü gənclərin fəaliyyətindən danışmışlar.



Qeyd olunmuşdur ki, hazırda bütün dövlət strukturlarında, cəmiyyətin əksər sahələrfində çoxlu sayda könüllü gənclər fəaliyyət göstərirlər. Gənclərin fəal iştirakına şərait yaratmaq, onlara peşə vərdişləri aşılamaq, təcrübi biliklərini artırmaq, yaradıcı və innovativ potensialının üzə çılxarılmasını dəstəkləmək və könüllülük hərəkatını inkişaf etdirmək sahəsində son illər Gədəbəy rayonunda da bir çox uğurlar qazanılmışdır.

Sonra söz könüllülərə verilmişdir. Onlar rayon icra hakimiyyətində böyük təcrübə qazandıqlarını, bu təcrübənin onların gələcək əmək fəaliyyətləri dövründə çox böyük kömək olacağını diqqətə çatdırmış və onlar üçün yaradılan şəraitə görə minnətdarlıqlarını bildirmişlər.

Sonda kurslarda iştirak edən könüllü gənclərə xüsusi sertifikatlar təqdim edilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# İlham Əliyevdən növbəti xəbərdarlıq

## Azərbaycan yenidən Ermənistanın dərsini verməyə hazırdır

*Əvvəli 1-ci səh.*

### Böyük qayıdış üçün zamanla yarışırıq

Düşmənin mənfur əməllərinə qarşı daim barışmaz mövqe sərgiləyən ölkəmiz 27 sentyabr 2020-ci ildə qurtuluş savaşına başlayaraq öz əzəli torpaqlarını azad etdi.

Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruq" əməliyyatı ilə Azərbaycan Ordusu erməni faşizmi üzərində qəti qələbə çalaraq ərazi bütövlüyümüzü bərpa etdi. Dövlətimizin başçısı ötən şənbə günü "CNN Türk" televiziya kanalına açıqlaması zamanı söylədi ki, sadəcə olaraq, bunu düzgün anda etməli idik və etdik, səhvə yol verə bilməzdik: "Çünki bu, tarixi məsuliyyətdir və ona görə zamanında atılan addımlar bax belə nəticəyə gətirib çıxardı. Xalqın barışmaz ruhu, əlbəttə ki, əsas amillərdən biridir. Çünki biz Qarabağı unutmadıq. Hətta Qarabağı görməyən və çadır şəhərciklərində doğulan uşaqlar da bir arzu ilə, bir amalla yaşayırdılar ki, getsinlər, öz torpağına qayıtsınlar. Ölümə gedənlər məhz onlar kimi minlərlə gənc olmuşdur".

Artıq Azərbaycanın işğaldan azad edilən torpaqlarında sürətli və böyük quruculuq işləri həyata keçirilir. Barbar düşmən tərəfindən vəhşicəsinə dağıdılan tarixi, dini, mədəni abidələrimizin hamısı yenidən bərpa edilir, tikilir. Hazırda bütün məcburi köçkünlər sevinclə doğma yurdlarına qayıtmağa hazırlaşırlar. Onların Vətən özləminə birdəfəlik son qoyulmasına isə çox az qalıb. Prezident İlham Əliyevin də vurğuladığı kimi, biz, sadəcə, böyük qayıdış üçün zamanla yarışırıq:

"...Ancaq qayıdış üçün bizə zaman lazımdır. Çünki 30 il ərzində ermənilər o yerləri dağıdıblar və bu gün oranı bərpa etmək, əlbəttə ki, vaxt tələb edir.

Bizim burada əsas rəqibimiz zamandır. Çünki Qarabağın və Şərqi Zəngəzurun bərpası üçün kifayət qədər maliyyə vəsaiti toplanıb və səfərbər olunub. Amma bizim əsas rəqibimiz zamandır və hər kəs anlamalıdır ki, burada da zamana ehtiyac var. Lakin biz vətəndaşlarımızı ən qısa müddət ərzində qaytaracağıq".



### Mina xəritələrinin dəqiqliyi cəmi yüzdə iyirmi beş faizdir

Düşmənin ərazilərimizi minalaması və mina xəritələrini Azərbaycana verməməsi, verdiyi mina xəritələrinin isə qeyri-dəqiq olması da vətəndaşlarımızın öz yurdlarına qaytarılmasına maneə törədir. Ermənilər 30 il ərzində işğalda saxladıqları ərazilərimizdə 100 minlərlə mina basdırıb. Hətta müharibə başa çatandan sonra - 10 noyabr tarixindən indiyədək 150-dən çox mülki şəxs və hərbçi minaya düşərək yaralanıb və ya həlak olub.

Bu barədə dövlət başçısı "CNN Türk"ə müsahibəsində ətraflı məlumat verərək söylədi ki, Ermənistan bizə minaların xəritələrini də vermir və son mərhələdə verilən xəritələrin dəqiqliyi cəmi yüzdə iyirmi beş faizdir: "Yəni burada da özlərini qeyri-səmimi aparırlar. Biz insanların həyatını risk altına ata bilmərik".

### "...Biz bu təklifi masa üzərində əbədi saxlamalı deyilik"

Müsahibə zamanı Prezident İlham Əliyev diqqəti ona da yönəltdi ki, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması, Zəngəzur dəhlizinin açılması, sərhədlərin delimitasiyası və digər məsələlərin həllinə maneə törədən yeganə səbəb Ermənistanın ya buna hazır olmaması, ya da bunun əleyhinə olmasıdır. Dövlət başçısı qeyd etdi ki, bu, böyük yanlışlıq olar və biz bu təklifi masa üzərində əbədi saxlamalı deyilik: "Əgər buna etiraz edirlərsə, açıq söyləsinlər ki, onlar Azərbaycanla sülh müqaviləsi imzalamaq istəmirlər. Belə olan halda biz də öz siyasətimizi buna uyğun şəkildə aparacağıq".

Baxmayaraq ki, Zəngəzur dəhlizinin açılması Ermənistanın da maraqlarına cavab verəcək, onlar da dəmir yolu ilə həm İran, həm də Rusiya ilə əlaqə yarada biləcəklər. Amma təəssüf ki, buna qarşı çıxırlar.

Azərbaycan Prezidentinin də vurğuladığı kimi, Ermənistanda ifrat millətçilik, türkofobiya, azərbaycanofobiya, islamofobiya o dərəcədə insanların və hakim dairələrin beyinlərini zəhərləyib ki, onlar istədiklərini də dilə gətirə bilmirlər.

Qarabağ münaqişəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyətli, prinsipial və uzaqgörən siyasəti nəticəsində Azərbaycanın şanlı qələbəsi ilə bitərək tarixə həkk olunub. Bu mərhələdə Ermənistan xalqımıza qarşı bəslədiyi bütün məkrli niyyətləri, uydurma fobiyaları kənara qoyaraq reallıqla barışmalı, sülh müqaviləsini imzalamalı, Azərbaycanın bütün dünya tərəfindən tanınan ərazi bütövlüyünü qəbul etməlidirlər.

Əks təqdirdə, Azərbaycanın dəmir yumruğu yenidən işə düşəcək. Necə ki, Ali Baş Komandan İlham Əliyev sözügedən müsahibəsində qətiyyətlə bunu onlara bir daha xatırladıb: "Mən bunu demişdim və bir daha demək istəyirəm, əgər yenə də erməni faşizmi baş qaldırmağa cəhd belə göstərsə, biz onun başını bir daha əzəcəyik. İkinci Qarabağ müharibəsindəki məğlubiyyət onlar üçün dərs olmalıdır".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Türk dünyasının qələbəsi

Tarixən xalqımızın milli-xəlqi xarakterində düşmənçiliyə meyil olmayıb. Həmişə dosta dost olmuşuq. Sərhədlərimizə təmiz ürəklə ayaq basanları duz-çörəklə qarşılamışıq. Min illəri belə yaşamışıq, əbədiyyətə qədər də belə yaşayacağıq.



Türkdilli xalqların bir-birinə münasibəti, təbii ki, dostluq münasibətidi. 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul ediləndə onu ilk tanıyanlar da türkdilli dövlətlər oldu - dostluğun, qardaşlığın təsdiqi kimi.

Ermənistan əvvəl Naxçıvanı, sonra Dağlıq Qarabağı Azərbaycandan qoparmaq, SSRİ hökumətinin himayəsi ilə əvvəlki illərdə nail olduğu siyasi üsullarla torpaq əldə etmək istəyirdi. Bu plan ilk olaraq akademik Aqambekyanın "Humanite" qəzetinə müsahibəsində səslənsə də, Ermənistanda hazırlanmışdı, ictimailəşdirilməsinə Moskvada xeyir-dua verilmişdi. Ermənistan Türkiyə amilinə, "Qars" müqaviləsinin xofuna görə Naxçıvan iddiasından Dağlıq Qarabağa keçid etdi. Sərhəd kəndlərimizə həmlələr, hücumlar edirdi, havadarlarının siyasi, mənəvi, hərbi dəstəyindən bəhrələnməklə Azərbaycana qarşı elan etmədən müharibə aparırdı. Ermənistan silahlı birləşmələrinin hərbi əməliyyatlarının qarşısını xalq, yerli müdafiə batalyonları alırdı; Ermənistanın bu istəyini düyünlənən yumruqlarıyla qarşılayan xalqımız müharibəyə köklləndi. Daha Ermənistanın Qazaxdan olduğu kimi ərazi mənimsəmə dövrü deyildi. Xalqın milli ruhu dünyanın gərdişiylə mübarizə aparmağa qadir idi. Xəli Rza Ulutürk demişkən, xalqın milli ruhu əsgərləşmişdi.

Moskva əsassız iddialarına görə Ermənistanı suçlamayanda xalqımızın pərakəndə, emosional etirazları nizami mübarizə müstəvisində birləşdi. Təşkilatlanan bu mübarizə dünyanı heyrətləndirən milli-azadlıq hərəkatı oldu.

Xalqın tələbi nə idi? - Ermənistanın bu iddiasına son qoyulsun, yəni SSRİ hökuməti Ermənistanın niyyətinin yolverilməzliyini etiraf etsin, bu etirafdan sonra Ermənistan separatçılıqdan əl çəksin. Belə olmadı, mərkəz ermənilіyə qeyri-rəsmi dəstək verdi. Bu, xalqın etiraz dalğalarını müqayisəyəgəlməz dərəcədə kükrətdi. Hərəkat dövlət müstəqilliyinin bərpasına yönəldi. Həm də dönməzliklə.

O illərdə dünyanın neçə-neçə dövləti Azərbaycanın tarixi mübarizəsini milli-xəlqi ruhun mübarizəsi kimi dəyərləndirdi və səmimiyyətlə, ehtiramla dəstəklədi. Dünyanın müxtəlif dövlətlərində yaşayan alimlər, sənət adamları, yazıçılar, şairlər də həmçinin, tanınmış Qazax şairi və ictimai xadim Oljas Süleymenov 20 Yanvar faciəsini öz xalqının faciəsi bilmişdi, o ağır vaxtlarda mübarizlərin sırasında Azərbaycandaydı. Bu faciəyə görə Moskvanı suçlayanlardan, faciənin təşkilatçılarının cəzalandırılmasını tələb edənlərdən biri də ruhən azərbaycanlılarla həmişə bir yerdə olmuş Oljas Süleymenov idi. O vaxtlarda şair Olyas Süleymenov ictimai xadim kimi bu mübarizənin mahiyyətini varlığıyla dərk edən ruh adamı olaraq bildirmişdi ki, Azərbaycan xalqının milli-azadlıq mübarizəsi, bu dönməz hərəkat dövlət müstəqilliyinin bərpası ilə nəticələnəcək. Bu inam həm də Oljas Süleymenovun timsalında qazax xalqının bizə sevgisi idi.

1991-ci ilin oktyabrında Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul ediləndə Oljas Süleymenovun qüruru da, sevinci də, sevgisi də bir boy dikəldi.

Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev görkəmli qazax şairi və ictimai xadimi Oljas Süleymenovu qəbul etdi. Görüşdə dövlətimizin başçısı böyük şairin Azərbaycanın haqq işini həmişə dəstəklədiyini, onun ölkəmizlə Qazaxıstan arasında mədəni əlaqələrin inkişafında xidmətlərinə görə "Şərəf" ordeni ilə təltif edildiyini bildirdi.

Bu təltif birliyin, qardaşlığın dövlət tərəfindən təsdiqi sənədidir, dövlətin ehtiramıdır, xalqın sevgisidir.

Şair, ictimai xadim Azərbaycanın Vətən müharibəsində qazandığı Zəfəri türk dünyasının qələbəsi kimi dəyərləndirdi. Oljas Süleymenov kimi nüfuzlu və dünyada tanınmış şəxsiyyətlərin Vətən müharibəsini bu səviyyədə dəyərləndirməsi qazanılmış Zəfərin bəşəriliyinin qürurudur, bu qürur dünyəvi niyyətləri sabahlara aparan yolları nurlandırmağa qadirdir. Uğurlarımıza türk dünyasının qələbəsi kimi sevinən, qürurlanan Oljas Süleymenov bölünməyəcək ruhun şairidir. "Az i ya" kitabı bizim də kitabəmizdır. "Az i ya" bölünməz, bölünməyən ruhun bəşəriyyətin mənəviyyat ulduzu olduğunu bizə də öyrədib.

***Səbinə XASAYEVA,***
***Milli Məclisin deputatı***

# Sabiq səfir Eldar Həsənov barəsində cinayət işinin istintaqı tamamlanıb

Sabiq səfir Eldar Həsənovun barəsində Baş Prokurorluğun İstintaq idarəsində aparılan cinayət işinin istintaqı tamamlanıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aparılmış istintaqla Həsənov Eldar Hümbət oğlunun Azərbaycan Respublikasının Ruminiya, Serbiya, Bosniya və Herseqovina və Monteneqroda səfir kimi fəaliyyət göstərdiyi 2010-2020-ci illərdə qabaqcadan əlbir olan bir qrup şəxs halında 17 milyon 931 min 316 manat (16 milyon 893 min 868 avro) məbləğində pul vəsaitini səfirliklər üçün yeni inzibati binaların alınması, habelə təmir-tikinti işləri ilə əlaqədar israf etmə və mənimsəməsinə, cinayət yolu ilə əldə edildiyini bilə-bilə 11 milyon 804 min 661 manat (11 milyon 156 min 716 avro) məbləğində pul vəsaitini leqallaşdırmasına, rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil edərək vəzifə saxtakarlığı törətməsinə, vəzifəli şəxs kimi vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə dövlətin qanunla qorunan mənafelərinə ağır nəticələrə səbəb olan 327 min 373 manat (180 min 728 avro) məbləğində mühüm zərər vurmasına və dövlət büdcəsinin xeyli miqdar təşkil edən 192 min 387 manat (101 min 761 avro) pul vəsaitindən təyinatı üzrə istifadə etməməsinə əsaslı şübhələr müəyyən olunub.

Buna görə Eldar Həsənova Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 179.3.2-ci (mənimsəmə və ya israfetmə, külli miqdarda törədildikdə), 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma, külli miqdarda törədildikdə) 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, ağır nəticələrə səbəb olduqda) 308-1.1-ci (Dövlət büdcəsinin vəsaitindən təyinatı üzrə istifadə etməmə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan olunub.

Avqustun 16-da cinayət işi üzrə ittiham aktı təsdiq edilməklə baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Eldar Həsənovun birgə ittiham olunduğu cinayətlərin digər iştirakçıları barəsində cinayət işi ayrıca icraata ayrılaraq istintaqı davam etdirilir.

Baş Prokurorluq, həmçinin son zamanlar bəzi sosial şəbəkələrdə və kütləvi informasiya vasitələrində Eldar Həsənovun səhhəti ilə bağlı yayılan həqiqətəuyğun olmayan məlumatlara da münasibət bildirib: "Bununla bağlı bildirilir ki, o, Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi Tibb Baş İdarəsinin hərbi hospitalında müayinə və müalicə edilib, barəsində cinayət təqibinin həyata keçirilməsinə mane olan hər hansı xəstəliyi aşkar olunmayıb".

# #prokurorluqdanizah həştəqi ilə təqdim olunan növbəti videoçarxda məcburi gətirilmə mövzusuna dair suallar cavablandırılıb

Prokurorluq orqanları dövrün tələblərinə uyğun olaraq müasir, vətəndaşyönümlü və onu məmnun edən tədbirləri daim diqqət mərkəzində saxlayır.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, vətəndaş məmnunluğunun və aşkarlığın təmin olunması məqsədilə prokurorluğun fəaliyyət istiqamətləri ilə bağlı vətəndaşları maraqlandıran məsələlərin prokurorluq əməkdaşları tərəfindən videoçarxlar vasitəsilə #prokurorluqdanizah həştəqi altında cavablandırılması işi davam etdirilir.

Növbəti videoçarxda Baş Prokurorluğun Mətbuat xidmətinin prokuroru Əbdülsəməd Əzizli "Məcburi gətirilmə nədir?", "Məcburi gətirilmə hansı hallarda tətbiq edilə bilər?", "Kimlər məcburi gətirilə bilməz?" suallarını cavablandırıb.

Videoçarxı Baş Prokurorluğun sosial şəbəkələrdəki səhifələrindən və veb-saytından da izləmək mümkündür.

# Əhmədli qəsəbəsində 47 şam ağacının yanması ilə bağlı cinayət işi başlanıb

Dövlətin ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın bərpası istiqamətində həyata keçirdiyi siyasətə kölgə salan hallara qarşı prokurorluq orqanları tərəfindən digər dövlət qurumları əlaqəli şəkildə kompleks mübarizə tədbirləri davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həyata keçirilən tədbirlərdən biri kimi, avqustun 11-də paytaxtın Xətai rayonunun Əhmədli qəsəbəsində Vunq-Tau küçəsi 11 ünvanında ağacların yanması ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 11 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsindən daxil olmuş material əsasında Xətai Rayon Prokurorluğunda araşdırma aparılıb.

Araşdırmalarla baş vermiş yanğın hadisəsi nəticəsində ərazidə olan 47 şam ağacının yanması nəticəsində ətraf mühitə ümumilikdə 37 min 800 manat məbləğində maddi ziyan dəyməsi müəyyən edilib. Həmçinin yanğının mənbəyi kimi müəyyən edilmiş dörd yerdə istintaq-əməliyyat tədbirləri zamanı tezalışan məhlul aşkarlanıb.

Faktla bağlı Xətai Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 260.3-cü (Meşələri və digər yaşıllıqları məhv etmə və ya zədələmə külli miqdarda ziyan vurmaqla törədildikdə) və 314.1-ci (Səhlənkarlıq) maddələri ilə cinayət işi başlanıb.

Hazırda cinayət işi üzrə zəruri istintaq hərəkətləri davam etdirilir.

# Dünyada kiçik nüvə reaktorlarına tələbat artır

Qarşısıalınmaz qlobal istiləşmə fonunda az parnik qazları tullantısı olan nüvə energetikasının inkişafına dəstək veriləcəkmi? Ümumiyyətlə, kiçik bloklar, habelə 1000 meqavatdan 1700 meqavatadək gücü olan reaktorlara tələbat olacaqmı?




Bu günlər iqlimin dəyişməsi üzrə hökumətlərarası ekspertlər qrupu rahatsızlıq doğuran hesabatını dərc etmişdir. Bundan sonra Rusiyanın "Rusatom" şirkəti elan etmişdir ki, Ekoloji və Nüvə Monitorinqi üzrə Federal Xidmət elektrik şəbəkəsi olmayan rayonlarda qurulacaq kiçik güclü (50 meqavatadək) modul reaktorların inşasına sanksiya vermişdir. "Rosatom" 2024-cü ildə Sibirin şimal-şərqində reaktorun tikintisinə başlamağı və 2028-ci ildə onu istismara verməyi planlaşdırır. Bu, qızıl mədənlərində daha rahat işləməyə imkan verəcək.

Su ilə işləyən belə reaktor son nəsildən olan 3 buzqıran gəminin hərəkətə gətirilməsində istifadə edilir. Bundan başqa, ondan Arktikada üzən elektrostansiyalarda istifadə etmək mümkün olacaq. Qeyd edək ki, ÇXR də bu sahədə imkanlarından istifadə etməyə qərar vermişdir. Ötən ayın ortalarında Çinin milli nüvə korporasiyası ölkənin cənubunda - Xaynan adasında 125 meqavat gücündə olan mini-AES-in tikintisinə başlamışdır. Dünyada ilk kommersiya müəssisəsi olacaq həmin reaktor 526 min evi elektrik enerjisi ilə təmin edəcək.

Üstəlik, ABŞ artıq 10 ildir bu sektoru maliyyələşdirir. Amerikanın "NuScale Power" şirkəti 2029-cu ildə analoji obyekti istismara verməyi planlaşdırır. 2008-ci ildən "Microsoft"un banisi Bill Geydsin yaratdığı "Terra Power" şirkəti də 2 SMR sektorunu maliyyələşdirir. Həmçinin "Terra Power" "Hitachi" şirkəti ilə birgə Vayomingdə kömür elektrostansiyasının ərazisində yaxın illər ərzində 350 meqavat gücündə reaktoru istismara verməyi planlaşdırır.

Uzun müddətdir ancaq iri reaktorlarla maraqlanan (məsələn, dünyanın ən güclü reaktoru hesab olunan EPR) Fransa da hazırda bu sahədə fəaliyyət göstərir. 2019-cu ildə "Elektrisite de Frans" şirkəti 300 meqavatdan 400 meqavatadək gücü olan reaktor layihəsini təqdim etmişdir. Şirkət gələn onilliyin əvvəlində reaktoru bazara çıxarmaq niyyətindədir.

Hazırda Beynəlxalq Atom Enerjisi Agentliyi (MAQATE) 18 ölkədə 72 mini-reaktor layihəsinə nəzarət edir. Ekspertlər mini AES-lərin çoxsaylı üstünlüklərini, (məsələn, daha çox təhlükəsizlik, elektrik şəbəkəsi olmayan uzaq rayonlara adaptasiya edilmiş ölçü, müəyyən sənaye sahələri üçün kifayət edən güc, yerlərdə daha sürətli və daha ucuz başa gələn tikinti və s.) vurğulayırlar.

Lakin o da var ki, bu müsbət məqamlar iri AES-lərlə müqayisədə mini-reaktorları daha rəqabətqabiliyyətli etmir. Fransalı mütəxəssis Şarl Merlen hesab edir ki, mini AES-lərə (SMR) xərclərin azaldılması daha böyük istehsal həcmlərindən asılı olacaq. Bunun üçün standartlaşdırılmış çoxsaylı mini-reaktorlar inşa etmək lazımdır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Əfqanıstanda hakimiyyətin taliblərə ötürülməsi davam edir

Xəbər verildiyi kimi, Əfqanıstan Prezidenti Əşrəf Qani ölkəni tərk edərək istefa verdiyini bildirmişdir. Bu barədə Milli Barışıq üzrə Ali Şuranın rəhbəri Abdulla Abdulla məlumat vermişdir.



"Əl-Ərəbiyyə" telekanalının xəbərinə görə, ölkədə keçid hökumətinin başçısı səlahiyyətlərini Əfqanıstanın sabiq daxili işlər naziri Əhməd Cəlali icra edəcək. Keçid hökuməti hakimiyyəti dinc yolla "Taliban"a ötürəcək. Belə ki, taliblər hakimiyyəti Prezident Əşrəf Qanidən almağa razılıq verməmişlər. Qaninin Tacikistana, Özbəkistana və Qazaxıstana uçduğu barədə xəbərlər yayılsa da, bunların heç biri təsdiqini tapmamışdır.

Hələlik keçid dövrü zamanı qarşıdurmaların baş verməməsi üçün ölkədə komendant saatı elan edilmişdir. "Taliban" rəhbərliyi hərəkat üzvlərinə ölkə sakinlərini qorxutmamağa və sərt tədbirlər görməməyə çağırmışdır. Bildirilmişdir ki, təqsiri olan vətəndaşların cəzalandırılması, məsələn, əl-ayağının kəsilməsi, daşqalaq edilməsi ancaq məhkəmənin hökmü ilə həyata keçiriləcək.

Qeyd edək ki, srağagün səhər paytaxta daxil olan "Taliban" dəstələri ölkə rəhbərliyinə hakimiyyəti dinc yolla ötürməyi təklif etmişlər. Onlar həmçinin bütün hərbçilərə və məmurlara amnistiya vəd vermişlər.

Əfqanıstandakı ən iri Puli-Çarxi həbsxanasından bütün məhbuslar azadlığa buraxılmışdır. 2018-ci ilin məlumatına görə, orada 5 minədək məhbus saxlanılırdı.

Bu arada ABŞ-ın dövlət katibi Entoni Blinken bildirmişdir ki, əfqan qüvvələri ölkəni müdafiə edə bilmədilər. Dövlət katibi həmçinin vurğulamışdır ki, ABŞ Əfqanıstanda terror təhlükəsini aradan qaldırmalı idi və öz məqsədinə nail oldu.

Moskva isə Əfqanıstandakı keçid hökuməti ilə əməkdaşlıq etməyə hazır olduğunu bildirmişdir. Bu barədə Rusiya Federasiyasının (RF) Kabildəki səfirliyindən məlumat verilmişdir. Deyilənə görə, keçid hökuməti rəsmi hakimiyyət orqanları və "Taliban"ın (bu təşkilat RF-də terrorçu kimi tanınır və fəaliyyəti qadağan edilmişdir) nümayəndələrinin iştirakı ilə formalaşdırılacaq və hakimiyyəti dinc yolla hərəkata ötürəcək. Eyni zamanda Rusiya XİN-də bildirmişlər ki, "Moskva hələ ki talibləri Əfqanıstanın qanuni hökuməti qismində tanımır".

VƏTƏN SƏNƏ OĞUL DEYİR

# Bir ailənin 3 igidi - əsgər, döyüşçü və qəhrəman qardaşlar

## Qıy vuran qartallar...

...Laçınlar qayalarda yuva qurar, zirvələrdə qanad çalar. Şuşa murdar ayaqlardan təmizləndikdən sonra orada "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı keçirilirdi. Tədbir başlamamışdan öncə bir dəstə gənc özləri ilə qəfəsdə gətirdikləri qartalı səmaya buraxdılar. Şuşa kimi qartal da sanki əsirlikdən azadlığa buraxılmışdı. Qanad çalanda inanmadı azadlığına qovuşub. Axı illərdir ki, qartallar da zirvələrdə qanad çalmağa həsrət qalmışdı...

Bu gün həmin qartal timsallı üç igid oğuldan söz açmağımız da təsadüfi deyil. Çünki onların danışmağa daha çox haqqı var. Axı qartalların da qıy vurub zirvələrdə qanad çalmasının əsl səbəbkarları elə igidlərdir - Vətən torpağını canı-qanı ilə düşməndən azad edənlər.

Onlar üç qardaşdır: Mehrac, Sirac və Eltac Ötərxan oğlu Məmmədzadələr əslən Laçın rayonundandırlar. Böyük qardaş Mehrac 1999-cu, ortancıl Sirac 2000-ci, kiçikləri Eltac isə 2001-ci ildə Bakı şəhəri, Xəzər rayonunun Buzovna qəsəbəsində dünyaya göz açıblar. Ona görə ki, ata-anasının dədə-baba yurdu Laçının Quşçu kəndi də erməni vandallarının tapdağında idi. Bu səbəbdən ailə 1992-ci ildən Bakıda müvəqqəti məskundur.

Sirac İdman Akademiyasını, Mehrac Aviasiya Akademiyasını bitirib. Eltac isə texniki-peşə məktəbində sənətə yiyələnib.

Vətən torpaqlarının müdafiəsinə üç oğul verən Ötərxan Məmmədzadə deyir: "Bu gün fəxr edirəm ki, övladlarım da illərlə düşmən tapdağında qalan torpaqlarımızın azad edilməsi uğrunda canından keçməyə hazır olduqlarını təsdiqlədilər. Biz həm də ona görə qürur duymalıyıq ki, Azərbaycanın ərazi bütövlüyünü bərpa edən belə oğulların sayəsində sərhədlərimizdə üçrəngli bayrağımız dalğalanır. O da qürurvericidir ki, həmin torpaqlarda Azərbaycan əsgəri dövlətinə, Vətəninə və xalqına xidmət edir! Namərd düşmən əsgərlərimizin qarşısında dayana, duruş gətirə bilmir. Çünki kapitulyasiya aktına qol çəkdikdən sonra, eləcə də "Dəmir yumruğ"un zərbəsindən hələ də ayılmayıblar..."




## Ön cəbhədə ancaq əmr verilir

Üç əsgər atası deyir ki, Eltac, şükür, müharibədən sonra doğma ailəmizə qalib kimi qayıtdı: "...Mehrac Qubadlının Cibikli istiqamətindədir. Sülhməramlılarla Ermənistan ordusunun bölmələri arasında sərhədçi kimi xidmətini şərəflə yerinə yetirir. Strateji əhəmiyyətli bir bölgədə Vətənə xidmətini davam etdirir..."

Ailə ortancıl qardaşı - Siracı da Vətənə xidmətə yola salıb. Gəncədə hərbi andiçmə mərasimindən sonra o da Vətənimizin sərhədlərinin toxunulmazlığının təmin olunmasında öz üzərinə düşən borcunu layiqincə yerinə yetirəcək, çünki özündən böyük qardaşlarının vətənpərvərlik dərsləri ona bir məktəbdir.

...Eltacın da olduğu dəstə "Qarşıdakı yüksəklik geri götürülməlidir" əmrini aldıqdan sonra Füzuli istiqamətindən Cəbrayıla doğru hərəkət edərkən 5 nəfərdən ibarət üç bölüyə ayrılıblar. Yüksəkliyə qalxdıqdan sonra məlumat alıblar ki, düşmən qüvvələri onları mühasirəyə salıb. Belə məqamlarda soyuqqanlılıq əsas şərtdir. Eltac bu barədə söz açarkən özü də həmin soyuqqanlılığı hiss etdirdi: "Hiss edəndə ki artıq düşmən səni mühasirəyə salıb, bu zaman nə silah atmaq, nə də hərəkət etmək olmaz. Hər daşın, qayanın arxasından sənə və əsgər yoldaşına silah tuşlayan erməni yaraqlıları kiçik bir səhvdən istifadə edib, sənə aman verməyə bilər. Bizim də elə anlarımız çox olub. Lakin müzəffər ordumuzun hərtərəfli taktiki və texniki baxımdan hazırlığı yüksək olduğuna görə ermənilər bizdən çəkinirdilər. Bunu da müşahidə edirdik. Ordumuzun hərtərəfli hazırlığı, "düşmənə ancaq zərbə və irəli!" coşqusu bizimkiləri neçə belə mühasirəni yarmağa şərait yaradırdı. Ən strateji bir yüksəkliyi düşməndən geri qaytaranda da cəmi iki şəhid verməklə onlara gücümüzü, inadımızı göstərdik: nəinki mühasirədən çıxdıq, hətta erməniləri pərən-pərən saldıq..."

## Dəmir dəbilqə, susuz dodaqlar və yağış damcıları...

XTQ-nin çavuşu Eltac Məmmədzadə müharibənin ən incə məqamlarını dilə gətirməyə həvəsli görünmürdü. Lakin demək istədikləri də az deyildi: "...Bilirsiniz, mühasirə, amansız düşmən, zülmət gecə, aclıq-susuzluq... ön cəbhədə vuruşan igidləri gözləyən çətinliklər onların yaşadıqlarının mində biridir. Biz də belə dözülməz anları yaşadıq. Aclığa dözmək olur, lakin susuzluq insanı məhv edir. Zülmət gecələrin biri idi. Susuzluqdan dilimiz-ağzımız yanırdı. Payız ayları olması bizim xeyrimizə idi. Başımızdakı dəmir dəbilqələrimizi çıxardıb Yaradanımızdan su istəyirdik. Yağış yağmasa da, gecənin şehi dəbilqələrimizi islatmış və dil-dodaqlarımızın yanğısını soyutmuşduq. Bu da bizə güc-qüvvə, irəliyə doğru daha bir addım atmaq demək idi. Cəbhədə hər şey Vətən, torpaq üçündür. Ona görə də insan oğlu indi çətinliklə söylədiyimiz o anlarda irəli getməkdən başqa heç nə düşünmür".

Eltac iki ildən artıq müddətdə hərbi xidmətdə olub. Atası deyir ki, müharibə başlayandan 38 gün keçsə də, Eltacdan bir xəbər tuta bilməyiblər: "İlk dəfə Zəngilan rayonunun Ağbənd qəsəbəsi istiqamətində döyüşdüklərini öyrəndik. Eltac deyir ki, döyüşlərin qızğın vaxtlarında arxa cəbhə, ata-ana, qardaş-bacı, yaxın-uzaq qohum yada düşmür, ancaq irəliyə doğru can atırsan, ləngisən, düşmən səni məhv edər, qazanılan uğurlar əldən çıxar. Orada ancaq cəsurluq, qorxmazlıq, dəyanət məktəbinin dərsini keçirsən".

Eltac evin ən kiçiyi olsa da, ailədən hərbi xidmətə ilk olaraq o gedib. Müharibədən qalib gələn əsgərin atası Ötərxan da bundan qürur hissi keçirir.

...Vətən torpaqlarının müdafiəsində dayanan qardaşılardan ailəyə dönən Eltacın təltifləri də var. Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" və "Vətən uğrunda"medalları ilə təltif olunub.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün noutbukların satın alınması məqsədilə tender elan edir

LOT-1. 13200 ədəd noutbukun satın alınması;

Tenderdə iştirak etmək istəyənlər 400 (dörd yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 ünvanından (əlaqələndirici şəxs-İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

**Təşkilat: Təhsil Nazirliyinin Təsərrüfathesablı**
**Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin**
**Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. IBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının peşəkarlığı və təcrübəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin Əlavə 1-nə uyğun);*
- *Azərbaycan Respublikasının mövcud qanunvericiliyində və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlər çərçivəsində qəbul olunmuş sertifikatlar (mənşə, uyğunluq və s.);*
- *iddiaçının 2020-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli (Əlavə 1)*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, eləcə də satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təkifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 3 (üç) ay ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **21.09.2021-ci il saat 16:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **29.09.2021-ci il 16:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **30.09.2021-ci il saat 16.00-da** Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC 2021-ci il üçün kotirovka sorğusu elan edir

Nəqliyyat vasitələrinin cari təmir xərclərinin satın alınması

Kotirovka sorğusunda iştirak etmək üçün tələb olunan sənədlər 30 avqust 2021-ci il saat 17:00-dək qəbul olunur.

Tələb olunan sənədlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir; 01.07.2021-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir; 01.07.2021-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir);*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (İddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir);*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;*
- *müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması.*

Ünvan: AZ1100 Bakı şəhəri, Yasamal rayonu, Nazim Hikmət küçəsi, 27. Əlaqələndirici şəxs: Nəsimi Kərimzadə.Telefon: (+99451) 207-59-12.

***Tender komissiyası***

# Ölümün gözünə dik baxan əsgər

Vətən müharibəsinin qəhrəman şəhidlərindən olan Əjdərli Şamxal Maarif oğlu 1997-ci il dekabrın 17-də Şəmkirin Xuluf kəndində zəhmətkeş ailədə dünyaya göz açıb. Atası fərdi təsərrüfatçı, anası Yeganə xanım evdar qadındır. Ailə Nurlanə, Rüfanə və Səma adlı üç qız, Şamxal adlı bir oğul övladı boya-başa çatdırıb. Nurlanə ailəlidir, Rüfanə nişanlıdır, Səma isə bacısının toyunu gözləyir.



İkinci Qarabağ savaşında şəhidlik zirvəsinə yüksəlmiş ailənin yeganə oğul övladı Şamxal üç bacının bir qardaşı, evin sonbeşiyi idi. O, 2004-2015-ci illərdə R.İsmayılov adına 2 saylı Xuluf kənd tam orta məktəbində təhsil alıb. Onunla bir sinifdə oxumuş Zahid Vəliyətli deyir ki, Şamxalla on il bir parta arxasında oturmuşuq: "Dostcanlı, təəssübkeş və mərd oğlan idi. Evin sonbeşiyi, bacıların yeganə qardaşı olduğundan onu gözdən qırağa qoymazdılar. Atası, eləcə də anası Yeganə xanım bilməndə ki harasa mənimlə gedib, nigaran qalmırdılar. Həmyaşıdlarımız kimi futbola çox həvəs göstərirdi. Hərdən zarafatla soruşurdum: yoxsa futbolçu olmaq istəyirsən? Deyirdi, nə danışırsan, bir arzum var - məktəbi bitirən kimi əsgərliyə gedəcəyəm, illərdi torpaqlarımızı işğal altında saxlayan, uşağa, qocaya, qarıya, xəstəyə rəhm etmədən qətlə yetirən, neçə-neçə ailənin həyatını tamamilə məhv edən ermənilərdən o insanların intiqamını alacağam".

Şamxal orta məktəbi bitirən ilin payızında müddətli həqiqi hərbi xidmətə çağırış vərəqəsi alanda çox sevindi.

O, 2016-2017-ci illərdə Naxçıvan Muxtar Respublikasında "N" saylı hərbi hissədə xidmətini başa vurdu. Qulluq etdiyi hissənin Ermənistanla sərhəd ərazilərdə yerləşən postlarının ərzaq və digər ləvazimatlarla vaxtında təmin olunmasından ötrü əlindən gələni əsirgəmədi. Ermənilə üzbəüz mübarizədə, ön cəbhədə olmağı arzulayan Şamxal hər dəfə dağlar qoynundakı məntəqələrdən qayıdanda və tapşırığı yerinə yetirməsi haqqında məlumat verəndən sonra xahişanə surətdə deyərdi: "Komandir, çox istərdim məni məntəqəyə göndərəsiniz..." Komandir isə bildirərdi: "Bu tapşırıq daha mühümdür, hələlik səndən başqa heç kimə həvalə etmək olmaz, gələcəkdə baxarıq". O, Şamxala tapşırılan işin icrasında ciddi olmağı tövsiyə edərdi. Əsgəri xidmətdə olduğu zaman sıravi Şamxal Əjdərli hərbi əmr və tapşırıqları layiqincə yerinə yetirdiyinə görə dəfələrlə təşəkkür və fəxri fərmanlarla təltif olunmuşdur.

30 ilə yaxın torpaqlarımızın 20 faizini işğal altında saxlayan Ermənistan silahlı birləşmələri növbəti dəfə - ötən ilin sentyabrında Azərbaycana hücum edəndə Şamxal da böyük narahatlıq keçirir. Bir neçə həmkəndlisi ilə Səfərbərlik və Hərbi Çağırış üzrə Dövlət Xidmətinin Şəmkir Rayon İdarəsinə gedib könüllü olaraq ön cəbhədə döyüşmək üçün müraciət edir.

Şamxal Əjdərli döyüş əməliyyatlarına Füzulidən başlayır. İlk gündən çevikliyi və qorxmazlığı ilə diqqət çəkir. Onunla Şəmkirdən Füzuliyədək yol gedən qonşu Təzəkənd kəndinin sakini, səngər yoldaşı Abbas Məmmədov deyir ki, Şamxal qorxu nədir bilmirdi, ölümün gözünə dik baxan əsgər idi: "Həmişə ən çətin əməliyyat tapşırıqlarına öndə getməyə can atırdı. Elə olurdu ki, yaxşı bələd olmadığımız ərazilərdən yaralıları, şəhidləri çıxarmaq lazım gəlirdi. Günün hansı vaxtı desən, Şamxal bu tapşırığa hazır idi. Onun bu qorxmazlığı sayəsində neçə-neçə yaralıya vaxtında yardım edib həyata qaytara bilmişdik. Bir neçə günün içərisində Füzulini erməni silahlı birləşmələrindən azad etdikdən sonra Hadruta doğru döyüşləri davam etdirmək əmri aldıq. Oktyabrın 25-də Şamxalla mən bir neçə əsgər yoldaşımızla axsamdan Füzuli rayonunun Aşağıbəyli kəndinin çıxışında, Hadrit meşəliyi istiqamətində "Beton yer" deyilən ərazidə müşahidə mövqeyində idik. Gecə bizim işarəmizlə tabor yoldaşlarımız düşmən istehkamlarını məhv etməli idi. Odur ki, Şamxal gündüzdən bütün ətrafı nəzərdən keçirmişdi. Şər qarışandan az sonra Ermənistan qoşunları tərəfindən güllə, mərmi yağışı ara vermirdi. Saat 12-də atəş bir az səngidi, heç yarım saat keçmədi ki, ermənilər yenidən başladılar... Şəhərə yaxın əsgərlər məni torpağın altından yarımcan çıxardılar. Hospitalda bildim ki, yoldaşlarım, eləcə də Şamxal şəhid olublar".

Şəhidimiz hərbçi yoldaşlarının və rayon ictimaiyyətinin iştirakı ilə anadan olduğu Xuluf kəndində torpağa tapşırıldı.

Şamxal Əjdərli şəhadətindən sonra Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Döyüşlərdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Ermənistan yeni fəlakətə sürüklənir

## Ölkədə siyasi böhran yaşanır

"Ölkəmizin 2018-ci ildən etibarən başqa məcrada getməsinə imkan var idi. Müharibədə yayınmaq üçün imkan var idi. Tarixi fəlakət əvəzinə tarixi uğurlara sahib olmaq üçün imkan var idi". Belə bir açıqlama ilə erməni ictimai xadim Vahe Hovhannisyan "Teleqram" kanalında yazıb.

O, daha sonra qeyd edir: "2018-ci ildə cəmiyyət daha ədalətli, daha yaxşı bir dövlətə doğru dəyişikliklər gözləyirdi. İndi təsəvvür edin, "çəyirtkə"nin dağıdıcı dalğası əvəzinə savadlı, işgüzar versiya seçilsəydi, tutub suvamaq maniyasının əvəzinə ağıllı insanlarla işləmək versiyası seçilsəydi, nə olardı. Həbs edilmək təhdidlərindən yorulmuşuq. Ölkə bu mənasız təhdidlər altında əyilməyə başlayıb. Dövlətin gələcəyini asfalta suvamağı dayandırın".

Bu açıqlamalardan bir daha bəlli olur ki, Ermənistanda hakimiyyət və müxalifət arasında ziddiyyətlərin daha da dərinləşməsinə, tərəflərin biri-birinə qarşı repressiv metodlardan istifadə edəcəyinə dair aylar əvvəl verilən proqnozlar özünü doğruldur. Xüsusən də yenidən hakimiyyətdə qalmağı bacaran Nikol Paşinyanın eks-prezident Robert Koçaryanı və tərəfdarlarını inzibati metodlar hesabına zərərsizləşdirməyə başlaması qeyd edilənlərin real təsdiqi hesab olunur.

Nikol Paşinyan hərbi rəhbərliklə bağlı sərt tədbirlər görür. O, artıq xeyli sayda generalı vəzifəsindən azad edib. İndi həmin generallar Nikol Paşinyana qarşı birləşiblər. Onlar baş nazirin istefasını tələb edirlər. Konstitusiya Məhkəməsinin keçmiş aparat rəhbəri Edqar Kazaryan deyir: "Nikol Paşinyanın istefasını tələbə edən işdən qovulmuş hərbçilərin sayı 9-a çatıb. Bunlar Silahlı Qüvvələrin Baş qərargah rəisi, general-polkovnik Onik Qasparyan, Baş qərargah rəisinin birinci müavini, general-leytenant Tiran Xaçatryan, Baş qərargahın Əməliyyatlar İdarəsinin rəisi general-leytenant Karen Abrahamyan, Silahlı Qüvvələrin Hava Hücumundan Müdafiə Qüvvələri Dövlət Baş İdarəsinin rəisi, general-mayor Armen Vardanyan, Silahlı Qüvvələrin Mühəndislik Qoşunları Dövlət İdarəsinin rəisi general-mayor İşxan Matosyan, Silahlı Qüvvələrin 3-cü Ordu Korpusunun komandiri, general-mayor Qriqori Xaçaturov, Silahlı Qüvvələrin Baş Təlim İdarəsinin Döyüş Hazırlığı Müdirliyinin rəisi, general-mayor Valerik Köçəryan, Baş Qərargahın Əsas Əməliyyatlar İdarəsi rəisinin birinci müavini, general-mayor Stepan Qorgian və Silahlı Qüvvələrin 1-ci Ordu Korpusunun komandanı, general-mayor Jirayr Poqosyandır".

Qeyd edək ki, Paşinyanın hakimiyyətə gəldikdən sonra demokratiya adı altında ölkənin tanınmış siyasi və ictimai xadimlərinə qarşı repressiv vasitələrdən geniş istifadə etməsi və onları bir-bir sıradan çıxararaq zərərsizləşdirməsi heç kimə sirr deyil. O indi də siyasi rəqiblərini bir-bir həbsə atır, onları "asfalta uzatmaqla" hədələyir və bunu edir. Paşinyan tərəfindən indiyədək Ermənistanın keçmiş rəhbərliyinə qarşı silsilə cinayət işləri açılıb, bəziləri həbs olunub.

Ümumiyyətlə, N.Paşinyan yenə ölkədə avtoritar rejim yaratmağa cəhd göstərir. Gələcəkdə özünə rəqib olacaq və ya rəqib olma ehtimalı yaranan istənilən şəxsi korrupsiya ilə mübarizə ittihamı ilə həbs edə bilməsi onun əl-qolunu daha da açır. Amma bu fonda Ermənistanda onu diktator hesab edənlərin sayı durmadan artır.

Hazırda Ermənistanda siyasi böhran yaşanır. Ölkədə siyasi repressiyalar güclənib. Qərb institutlarının Ermənistanda baş verən qanunsuzluqlara, siyasi repressiyalara, həbslərə, təqiblərə, polis zorakılığına bir dəfə də olsun münasibət bildirməməsi, hansısa bəyanat səsləndirməməsi isə onların öz fəaliyyətlərində əsasən ikili standartlara üstünlük verdiyini bir daha aydın göstərir.

Sabiq deputat, "Alternativ layihələr" qrupunun üzvü Elinar Vardanyan deyib ki, hakimiyyətin başlatdığı siyasi repressiyaya qarşı cəmiyyətdəki laqeydlik başadüşülən deyil. Onun sözlərinə görə, həlledici məqamlarda öz sözünü deyən vətəndaşlara qarşı həyata keçirilən "siyasi qisas" hallarını passiv şəkildə izləməyə haqqımız yoxdur: "Sünik (Zəngəzur) şəhərlərinin bələdiyyə başçıları ən çətin anlarda hakimiyyətə ciddi müqavimət göstərdilər. Bu günlərdə icma rəhbərləri ilə əlaqəli təzyiqləri cəmiyyətin sükutla qarşılaması qəbuledilməzdir".

Belə vəziyyətdə Ermənistanda dövlət orqanlarının və vəzifəli şəxslərin hərəkətlərini tənqid və təkzib edən, şübhə altına alan və ya başqa bir şəkildə dəyərdən salan məlumatların dərc edilməsi və yayımlanması qadağan olunub. Ölkədə hakimiyyəti, hətta bələdiyyələri belə tənqid etməyə görə də yüksək cərimə tətbiq edilir. Buna görə sosial şəbəkə istifadəçiləri və jurnalistlər açıq şəkildə hakimiyyətin özbaşınalığını və cinayətlərini tənqid edə bilmirlər.

Diktaturanın ciddiliyi özünü həm də onda göstərir ki, burada vətəndaşların dinc etiraz aksiyalarını mümkünsüz edən yüksək cərimələr tətbiq olunur. Bütün bunlar bir daha Ermənistanın fəlakətə sürükləndiyini təsdiq edir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Biz birlikdə güclüyük!

◆ Mütəxəssis rəyi

## «Delta» 60 dəfə daha yoluxucudur və əsas hədəfi gənclərdir

### *Ümüd SƏLİMZADƏ:* “Pandemiyaya qarşı mübarizədə peyvənddən başqa seçim yoxdur”

“Dünyada olan 7,8 milyard əhalidən, təqribən 40 faizi risk qrupu sayılır. Bunlar yaşlılar, yanaşı xəstəliyi olanlar, səhiyyə işçiləri və digərləridir. Buna görə də birmənalı olaraq COVID-19 pandemiyasından qurtulmaq üçün dünya əhalisi peyvəndlənməli və virusa qarşı kütləvi immunitet qazanmalıdır. Belə olmadıqca virus davamlı mutasiyaya uğrayacaq və daha güclü ştamlarla insanları təhdid altında saxlayacaq”.

Bu fikirləri Almaniyada çalışan həmvətənimiz həkim Ümüd Səlimzadə, iki ilə yaxındır dünyanın gündəmindən düşmək bilməyən pandemiya ilə bağlı apardığımız müsahibə zamanı səsləndirdi.

1989-cu ildə Masallı rayonunda anadan olan Ümüd Azərbaycan Tibb Universitetinin Müalicə-profilaktika fakültəsini əla qiymətlərlə başa vurub. 2012-ci ildə Təhsil Nazirliyinin Alman Akademik Mübadilə Xidməti (Deutscher Akademischer Austausch Dienst-DAAD) ilə birgə təşkil etdiyi layihə çərçivəsində orada təhsilini davam etdirir, Berlin şəhərində Avropanın ən qədim universitet klinikası hesab olunan “Charite”də burun-boğaz və baş-boyun cərrahiyyə şöbəsində bir il assistent kimi çalışır. 2013-cü ilin dekabrında Thüringen əyalətinin Saalfeld şəhərində eyni adlı klinikada rezident kimi çalışmağa başlayır. Hazırda gənc mütəxəssis Yena şəhərindəki Yena Cərrahiyyə Mərkəzində əl və rekonstruktiv şöbədə asistent həkim işləyir.

Son dövrlərdə Ümüd Səlimzadəni Azərbaycan ictimaiyyəti daha yaxından tanıyır. Ötən bir ildə, ölkə KİV-inə pandemiya ilə bağlı verdiyi 50-dən artıq müsahibədə gənc həkimin əsasən pandemiya ilə bağlı basmaqəlib, standart fikirlər yox, tibb sahəsində pandemiyaya qarşı əldə edilən yeniliklər, innovasiyalar haqqında fərqli mülahizələri diqqət çəkir. Hazırda həmyerlimiz Bakıda ezamiyyətdə olduğuna görə onunla görüşüb söhbətləşmək imkanı qazandıq.



### Dalğaların fəsadları

Ümüd Səlimzadə deyir ki, COVID-19 virusu tarixən zoonoz şəklində bəlli olsa da, ilk dəfə bu infeksiyanın heyvandan insana keçməsi halı 2019-cu ildə Çinin Uhan şəhərində müşahidə edildi. Eyni zamanda dünyada çoxlu şübhələr, spektik fikirlər yarandı ki, necə oldu indiyə qədər virus insana keçmirdi, amma indi bu baş verdi? Buna görə də virusun 570-ə yaxın gen analizi edildi və müəyyən olundu ki, Çində yaranan Alfa variantı əsasən iki mümkün yolla heyvandan - Panqulinlərdən və yarasalardan insana keçə bilər.

Yoluxan insanlarda olan virusların gen analizləri ilə həmin heyvanların gen analizlərinin müqayisəsi bu qənaətə gəlməyə əsas verdi. Yəni, tibb bu halın mümkünlüyünü təsdiqləyir: “İlk zamandan etibarən dünyanın pandemiya ilə mübarizə tədbirləri yetərli idi. Amma həddindən artıq izafi tərdbirlər də görüldü və dünya iqtisadiyyatına böyük zərbə vuruldu. Bu qədər açıq olan dünya birdən-birə sərt qapandı. İnsanlar isə malik olduqları azadlıqlarını məhdudiyyətlə əvəz etmək istəmirdilər. Yəni hətta ən inkişaf etmiş dövlətlər belə ilk başda nə edəcəklərini bilmirdilər. Amma sonrakı mərhələdə məlum oldu ki, bu virusu PZR test 98.7 - 99 faiz dəqiqliklə müəyyən edir. Həmçinin tibbi maskaların COVID-dən qoruduğu bəlli oldu. Son araşdırmalar isə göstərib ki, “N-99” maskaları virusun təxminən 99 faiz ötürülməsinin qarşısını alır. Yəni zaman keçdikcə virusa qarşı effektiv önləmlər alınmağa başlandı və buna görə yoluxmada müəyyən azalmalar oldu. O zaman ölkələr müxtəlif açılmalara getdilər. Ona görə də dünyada birinci kiçik dalğadan sonra payız aylarında böyük dalğa meydana gəldi. Bu, səhiyyə sistemini 200 illik sosial sığorta sistemi ilə təkmilləşdirilmiş Almaniyada da yaşandı. Orada, həmçinin bir çox Avropa ölkələrində yaşlı əhali çox olduğu üçün ölüm faizləri yüksək idi”.

### Azərbaycanın mübarizə üsulu

Həkim söyləyir ki, Azərbaycan ilk başlarda dünyanın klassik pandemiya planını həyata keçirməyə başladı. Sərt qapanmaya getdi, sms icazə sistemi tətbiq edildi. Elə buna görə də ilk vaxtlar gündəlik 100-ü keçməyən yoluxmalar müşahidə olundu: “Azərbaycanın ikinci atdığı vacib addım isə Türkiyədə uzmanlıq təhsili alan həkimləri ÜST vasitəsilə 3 qrupda Azərbaycana gətirməsi oldu. Onlar elan olunmuş klinikalara yerləşdirildi. O həkimlərin təlimlərindən, tibbi bacarıqlarından istifadə olunmağa başlandı. Eyni zamanda ölkəyə tənəffüs aparatları gətirildi, Təcili Tibbi Yardım maşınlarının sayı artırıldı. Digər uğurlu addım xəstəxanaların sırf pandemiya xəstəxanası elan olunması idi. Bu isə virusun başqa profilli xəstələrə keçməsinin qarşısını aldı. Ölkədə olan bütün koronavirus xəstələrinin müalicəsinin, daşınmasının, onların test olmasının xərclərini dövlət İcbari Tibbi Sığorta sayəsində öz üzərinə götürdü. Yeni qurulan icbari tibbi sığorta və onun nəzarətində olan TƏBİB-in və Səhiyyə Nazirliyinin üçünün bir arada kombinə şəkildə işləməsi səhiyyənin yükünü yüngülləşdirdi. Çünki ev şəraitində müalicə alan xəstələrə poliklinikalardakı sahə həkimləri nəzarət edirdi. 1 il ərzində təxminən 120 min nəfər ev şəraitində müalicə olundu. Bunun özü xəstəxanaların yükünü xeyli azaltdı. Eyni zamanda poliklinikalardakı sahə həkimlərinin xəstələrlə əlaqəsi təmin olundu. Ölkəmizdə İcbari Tibbi Sığorta Sisteminə keçid formalaşıb və həmin həkimlər insanlarımızın ailə həkimi olacaq. Əslində pandemiya fonunda Ailə Həkimi İnstitutunun da əsası qoyulmuş oldu”.

Həkim hazırda respublikamızda xəstəxanaların birləşdirilməsi prosesinin getməsini də yüksək qiymətləndirir. Bunun üstünlüyü odur ki, həmin xəstəxanalarda bütün profilli həkimlər çalışacaq. Yəni ora müraciət edən xəstələr, mütləq ixtisaslı həkimə yönləndiriləcəklər. Bunlarla yanaşı, digər ən önəmli məsələ Azərbaycanın tez bir zamanda COVAX layihəsinə qoşulması, peyvəndin ölkəyə gətirilməsi və istifadəsi oldu.

### Pandemiya fonunda müharibə

Ümüd Səlimzadə vurğulayır ki, Azərbaycanda ötən il yaşanan pandemiyanın payız dalğasında daha çətin mərhələ oldu. Həm pandemiya ilə mübarizə aparırdıq, həm də düşmənlə döyüşürdük: “Real götürsək, bizim ölkədə onsuz da tibb təhsilində hərbi səhra cərrahiyyəsi, hərbi gigiyena fənləri tədris edilirdi. Eyni zamanda ölkənin Hərbi tibb fakültəsi var idi. Yəni Azərbaycan hər zaman buna hazır idi. Ona görə birdən-birə pandemiya ilə yanaşı müharibənin olması, çətin situasiya olsa da, səhiyyə işçiləri üçün ağır oldu. Çünki səhiyyə sistemi hər zaman forsmajor hallara hazır olmalıdır. Təbii ki, yüklənmə həkimlərin iki cəbhəyə ayrılmasına səbəb oldu. Yanaşı olaraq, insanlarımızın şəhidlərin dəfnində kütləvi iştirak etməsi, ərazilərimizin işğaldan azad edilməsi birgə qeyd etməsi, xəstələrə baş çəkməsi kimi mental məsələlər ölkəmizdə pandemiyanı daha sürətləndirdi. Havanın soyuq keçməsi, qapalı məkanlarda çox olmaq, xarici məkanlarda bir yerə toplanmaq və sair səbəblər də növbəti dalğaya gətirib çıxardı. Təbii ki, o zaman müəyyən mənada tibb müəyyən çətinliklə üzləşdi. Çünki biri var bir həkim 5 xəstəyə baxsın, biri var 15 xəstəyə. Dolayısı ilə bir həkimin xəstəyə ayıra biləcəyi vaxt və görə biləcəyi işin keyfiyyəti aşağı düşdü. Bu gözlənilən idi və dünyanın hər yerində belə idi. Almaniyada da, Türkiyədə də bu hal yaşanırdı”.

### Xəstəlik, yoxsa peyvənd...

COVID-19-a qarşı peyvənd hazırlanandan sonra dünyadakı əksər insanlarda belə bir sual yarandı ki, necə oldu ki, çox qısa, cəmi bir neçə ay ərzində peyvənd ortaya çıxdı? Hətta bu şübhəyə görə hazırda da bəzi insanlar peyvənd vurdurmaqdan imtina edirlər. Bəs məsələnin doğrusu nədir?

Ümüd Səlimzadə Amin Maaloufun belə bir fikrini xatırladır ki, insanlar 5000 il boyunca vərəmə lənət yağdırdılar, ancaq heç nə dəyişmədi, çünki problemin həlli peyvənddə idi. Difteriya, Tetanus, Qızılca, Məxmərək, Rotavirus, İnfluenza B, Rotavirus - bunların hamısı hərəkət məhdudiyyətinə (yeriyə bilməməyimizə) və ölümə səbəb olan xəstəliklərdir. Ancaq peyvəndləri olduğu üçün bu gün uşaqlarımız həyatda qalırlar.

Dünyada RNT tipli iki peyvənd var, biri ABŞ istehsalı “Moderna”, digəri Almaniya istehsalı olan Biontek Pfizerdir. Bu iki peyvəndin istehsal olunması heç də təsadüfi deyildi. Çünki bu peyvəndlərlə məşğul olan firmalar hələ 1971-ci ildən RNT texnikası ilə peyvənd hazırlamaq istəyirdilər. İndiyə kimi dünyada peyvəndlər klassik üsulla hazırlanırdı. Yəni virusun, ya bakteriyanın hər hansı hissəsini götürürdülər və onu sentrfuqadan keçirirdilər, belə deyək, 50 dəfə onun yoluxma ehtimalını aşağı salıb sonra köçürürdülər insan orqanizminə. Buna ölü peyvənd deyirik, hansı ki, Sinovac da bu qaydada hazırlanıb. Ümumiyyətlə, peyvəndin və ya hər hansı dərmanın hazırlanması və ona satış icazəsinin verilməsi illərlə çəkən prosesdir. Amma ÜST-ün təcili hallar üçün icazə vermək səlahiyyəti var. Yəni pandemiya olmasa idi, peyvəndlərin ortaya çıxmasına təcili icazələr verilmirdi. Bu viruslara qarşı peyvəndlər üzərində uzun illərdir araşdırma gedirdi. Pandemiya sürətli hal aldığından tam ideal olmasa da, ideala ən yaxın peyvəndlərə istifadə üçün icazə verildi. Çünki pandemiyanı başqa cür önləmək olmurdu.

Müəyyən qisim əhali peyvəndlərlə bağlı yanlış düşünür. Dünyada peyvəndləmə mexanizmində bunu görürük. Əksər dövlətlərdə 60-65 faiz civarında peyvəndləmə gedir, sonra proses dayanır. Çünki əhali buna cidd-cəhdlə qarşı çıxır. Amma bu təqdirdə pandemiyanın qarşısını almaq mümkün olmayacaq və biz daim mutasiyaya uğrayan viruslarla mübarizə aparmalı olacağıq.

“Virus mutasiyaları tarixboyu var və bundan sonra da olacaq. Dünyada 10 milyardlarla virus var. Bunun 9110-u elmə məlumdur. 2020-ci ildə 1044-ü tapılıb. Yəni bu pandemiya virusları yaxşı araşdırmağa təkan verib”, deyən Ümüd Səlimzadənin fikrincə, Çində yaranan “Alfa” versiyası insanlara yoluxduqca dəyişikliyə uğradı. İngiltərədə “Beta” formasına keçdi. Araşdırmalar zamanı məlum oldu ki, 90 yaşlı bir qadın reanimasiyada yatıb, onu xeyli müalicə ediblər və sağaltmaq istəyərkən virus mutasiyaya uğrayaraq başqa birinə keçib. Yəni xəstəni müalicə etdikcə virus davamiyyət göstərir. Əgər dünyanın risk qrupu peyvəndlənməsə, mutasiyalar yaranmağa davam edəcək.

Hər növbəti mutasiya və ştamm əvvəlkindən daha kəskin olması ilə fərqlənir. Misal üçün “Delta” ştammı “Alfa”dan 30-60 dəfə yoluxucu əmsalının yüksək olması ilə fərqlənir. Bu ştamm əsasən gənc yaş qrupuna təsir göstərir, onlara yoluxur.

Yaranan variantlara qarşı ən təsirli vasitə isə əlimizdə olan peyvəndlərdir. Biontek Pfizer, Sinovac peyvəndləri “Delta”ya qarşı 70-80 faiz təsir göstərir. Amma bu peyvəndlər 50 faiz belə təsir göstərirsə, böyük göstəricidir.

### Reanimasiyada yatan xəstələrin 99 faizi peyvəndlənməyənlərdir

Azərbaycanda peyvəndləmə ilə bağlı mühüm addımlar atıldığını vurğulayan Ümüd Səlimzadə söyləyir ki, hökumət bu il mayın sonlarında çox təqdirəlayiq addım atdı və peyvənd pasportu məsələsini gündəmə gətirdi: “Həmin günə qədər ölkəmizdə vurulan peyvənd dozalarının sayı 2 milyona qədər idi və o müddətdən növbəti brifinqə - iyulun 26-dək vurulan vaksin dozalarının sayı 4,5 milyonu ötdü. Ay ərzində ortalama 1,25 milyon doza vaksin vuruldu. İki aydan sonra peyvəndlənmənin sürəti hökuməti qane etmədiyinə və yoluxmanın tendensiyası artdığına görə, peyvəndlənmə siyasətində növbəti addım atıldı. Bu, gözlənilən idi. Çünki tələbələrin dərslərdə canlı iştirakını təmin etmək istəyiriksə, təhsil işçilərinin və dərsdə iştirak edən tələbələrin vaksinləşməsini görməliyik. Ona görə də hökumət bu addımı atdı. Həmin addımın nəticəsini görürük. Çünki son günlərdə peyvənd vuruduranların sayının artdığını görürük. Bu da onu göstərir ki, əhali öz sağlamlığının təminatı üçün vaksinasiyaya gedir”.

“Dünyada peyvəndləmə sayı haradasa 4 milyarddır. Bu, aşağı göstəricidir və peyvəndləmə sürətlənməlidir. Müşahidələrimizə əsasən deyə bilərik ki, reanimasiyada yatan xəstələrin 99 faizi peyvəndlənməyənlərdir. Onların hər biri deyir ki, “sosial şəbəkələrə inandım, peyvəndlənmədim”. Yalan məlumatlar insanların əllərində olan peyvənd olmaq imkanından kənarda qalmasına, ən sonda ölməsinə gətirib çıxarır” - Ümüd Səlimzadə bu tendensiyanı böyük sosial bəla hesab edir.

Həkimin fikrincə, yoluxucu xəstəlik yayılan dönəmlərdə insanların cəmiyyət qarşısında müəyyən öhdəlikləri var. Bu cavabdehlik həmrəylik prinsipi əsasında işləyir. Bu prinsipə sadiq qalsaq, bəladan daha tez qurtulacağıq. Pandemiya şərtlərinə əməl edilməlidir. Daha vacibi isə peyvəndlənməkdir. Peyvənd 200 ildir ki, bəşəriyyəti əksər xəstəliklərdən qoruyur. Elə indi də peyvənd dünyanı qurtaran hələki yeganə xilas yoludur. Başqa seçim yoxdur.

***Yasəmən MUSAYEVA, “Azərbaycan”***

## Vaksinasiya prosesinin aparılmasında əsas məqsəd əhalini pandemiyadan qorumaqdır

*Əvvəli 1-ci səh.*

Qonşu Gürcüstanda da son günlər koronavirusun geniş yayılması barədə məlumatlar gəlir. İnfeksiyanın tüğyan etməsini epidemioloqlar koronavirusun yeni ştamlarının yayılması ilə əlaqələndirirlər.

Belə ki, bu ölkədə hazırda “Delta”, “Britaniya” ştamları ilə bərabər, “Delta plyus” variantları da aşkar edilib. Ekspertlərin fikrincə, avqustun sonuna yaxın ölkədə “Delta”nın dominantlıq edəcəyi gözlənilir. Bəzi ekspertlər payızda beşinci dalğanın olacağını istisna etmirlər.

Gürcüstan əhalinin hər 100 min nəfərinə düşən yoluxma sayına görə hazırda irəlidə gedən ölkələr sırasındadır. Mütəxəssislərin qənaətincə, Gürcüstanda pandemiyanın tüğyan etməsinin və ölüm hallarının artmasının əsas üç səbəbi var. Səbəblərdən birincisi, insanlarda peyvəndləməyə inamın az olması, ikincisi, vaksinasiyanın çox zəif aparılması, üçüncüsü isə tibbi maskalardan və digər vasitələrdən yetərincə istifadə olunmamasıdır.

Gürcüstanın səhiyyə naziri Yekaterina Tikaradze ölkədə epidemioloji vəziyyətin ən pis ssenari üzrə inkişaf etdiyini bildirib. Belə ki, 3,7 milyon əhalisi olan bu ölkədə gündəlik 5700 nəfər koronavirusa yoluxur. Bu isə ölkə əhalisinin hər 100 min nəfərinin 109-nun yoluxması deməkdir. Nazir deyib ki, ölkənin səhiyyə sistemi infeksiyaya yoluxanların kəskin artımı səbəbindən yüklənmə ilə üz-üzədir, artıq xəstəxanalarda çarpayı qıtlığı yaranıb. Hökumət səhra hospitallarının yaradılması məsələsini nəzərdən keçirir. Həmçinin Tbilisi İdman Sarayı və buna bənzər digər yerlərin ilkin tibbi yardım üçün xəstəxanaya çevrilməsi məsələsi gündəlikdədir.

Gürcüstanın Xəstəliklərə Nəzarət və İctimai Səhiyyə Milli Mərkəzinin rəhbərinin müavini Paata İmnadze ölkədəki epidemioloji vəziyyətin Hindistandakı vəziyyətdən 5 dəfə ağır olduğunu açıqlayıb. Bildirib ki, “Delta” ştammı Gürcüstanda daha çox yayılır və digər ölkələrə ixrac olunur. “Delta” ştammını isə “Delta plyus” əvəz edir, bu gün xəstələrin 40-50 faizi məhz bu ştamma yoluxublar.

Səhiyyə işçiləri pandemiya ilə əlaqədar daha ciddi tədbirlərin araşdırılmasını qadağaların tətbiqində görür. Hökumət isə iqtisadiyyata kömək məqsədilə hələlik ağır qapanmalara getmir. Turizm sezonu dövründə bu cür qapanmalar daha ağır nəticələrə səbəb ola bilər. Gürcüstana Rusiya, Ukrayna və ərəb ölkələrindən gələn yüzlərlə turistin hesabına isə virus daha çox yayılmağa başlayıb.

Daha bir ölkədə - Yunanıstanda da turist axını ilə paralel olaraq koronavirusa yoluxmalarda artım müşahidə edilir. Bəzi bölgələrdə, eləcə də ölkənin məşhur Mikonos və Santorini adalarında vəziyyət kritik həddə çatıb. Hökumət orqanları xüsusi məhdudlaşdırıcı tədbirlərlə xəstəliyin yayılmasının iqtisadiyyata təsirsiz ötüşməsi üçün müəyyən işlər həyata keçirir.

Dünyada tüğyan edən koronavirus ölkəmizdə də meydanını genişləndirib. Belə ki, virusa gündəlik yoluxmada və ölüm sayında artım davam edir. Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazov bir həftədən çoxdur ki, ölkəmizdə koronavirusa yoluxma hallarında bu cür mənfi dinamikanın izlənməkdə olduğunu vurğulayıb. Bildirib ki, əgər bir müddət əvvəl rəqəmlər 200-dən artıq idisə, qısa müddətdə on dəfədən çox artıb: “Ətrafımızda olan digər ölkələrə diqqət etsək, görərik ki, həmin proses onlarda bizdən də daha əvvəl başlayıb və epidemioloji vəziyyət ölkəmizdəkindən daha pisdir. Lakin son günlərdəki artım onu deməyə əsas verir ki, Azərbaycanda da xəstəliyin növbəti alovlanma dövrü başlayıb. Bir müddətdir ki, bununla bağlı həyəcan təbilini çalırıq və əhalinin həmin infeksiya ilə necə mübarizə aparması, o cümlədən vaksinasiyanın əhəmiyyəti haqqında maarifləndirmə işini genişləndirməyə çalışırıq”, - baş infeksionist belə deyib.

Təyyar Eyvazov ümidverici bir xəbəri də verib: “Son dövrlər qəbul edilən qərarlar, aparılan təbliğat-təşviqat işlərinin nəticəsidir ki, gündəlik peyvənd olunmaq üçün müraciət edənlərin sayı artıb. İlk günlərdə müraciət edənlərin sayı xeyli az idi. Hazırda bu rəqəm gündəlik 60 minin ətrafında dəyişir. Bu da tam arzuolunan deyil. Dövlətin imkanı var ki, hər gün 100 min civarında vətəndaşın vaksinasiyasını həyata keçirsin. Aparılan kompleks tədbirlər nəticəsində vaksinə olan inamı artıb. İndi vətəndaşlar daha kütləvi şəkildə müraciət edirlər. Lakin yenə də passiv qruplar var. Bizim də hədəfimiz budur. İstəyirik həmin şəxslərə vaksinin effektivliyinə və təhlükəsizliyinə dair məlumatları çatdıraq ki, onlar da vaxtında düzgün qərar qəbul etsinlər”,

Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının Pulmonologiya və allerqologiya şöbəsinin həkimi Günel Sadıqova bildirib ki, yeni növ koronavirus infeksiyası əleyhinə kütləvi vaksinasiya prosesinə hər kəs qoşulmalıdır. Çünki ölkədə koronavirusa yoluxma sayının artması həm dövlət, həm əhali, həm də səhiyyə işçiləri üçün təhlükə yaradır. Belə ki, virusa yoluxanların artması ilə əlaqədar tibb müəssisələri yüklənmiş olacaq və qabaqlayıcı tədbirlərin görülməsində gecikmələr yaranacaq.

Mütəxəssis vətəndaşlar arasında laqeydliyin, təhlükəsizlik tədbirlərinə riayət olunmamasının yoluxma saylarında artımlara rəvac verdiyini diqqətə çatdırıb: “Bir çoxları düşünür ki, məhdudiyyətlər yoxdursa, deməli, virus yoxa çıxıb. Halbuki pandemiya hələ bitməyib və virus yayılmaqda davam edir. Yeni “Delta” ştammının qonşu ölkələrdə sürətlə yayılması, eləcə də ölkəmizdə mövcudluğu bizim üçün ciddi siqnal olmalıdır”.

O, müşahidələrə əsaslanaraq bildirib ki, hazırda xəstəxanaların reanimasiya şöbələrində müalicə alan koronavirus xəstələrinin 90-95 faizi peyvənd olunmayanlardır: “Peyvənd yoluxmanı tamamilə aradan qaldırmasa da, ağırlaşma və ölüm hallarını kifayət qədər azaldır. Ona görə də kütləvi vaksinasiyanı sürətləndirməklə virusun öhdəsindən gəlmək mümkündür”.




Azərbaycanda koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə yalnız paytaxt küçələrində deyil, bölgələrdə də həyata keçirilən tibbi-profilaktik və dezinfeksiyaedici tədbirlər davam etdirilir. Səhər saatlarından başlayaraq ölkənin müxtəlif ərazilərində, küçə və prospektlərdə, əhalinin sıx toplaşdığı yerlərdə dezinfeksiya işi aparılır.

Bundan başqa, əhali ilə maarfləndirici söhbətlər edilir. Onların mütləq şəkildə peyvənd olunmalarının vacibliyi diqqətə çatdırılır. Bildirilir ki, geniş vaksinasiya prosesinin aparılmasında və dezinfeksiya tədbirlərinin keçirilməsində əsas məqsəd vətəndaşlarımızı pandemiyadan qorumaqdır.

***Zöhrə FƏRƏCOVA, “Azərbaycan”***

## Azərbaycanda koronavirus infeksiyasına 1851 yeni yoluxma faktı qeydə alınıb




Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 1851 yoluxma faktı qeydə alınıb, 402 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 17 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 369 min 853 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 339 min 327 nəfər müalicə olunaraq sağalıb, 5 min 170 nəfər vəfat edib. Aktiv xəstə sayı 25 min 356 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 9 min 695, bu günə qədər isə ümumilikdə 4 milyon 220 min 135 test icra olunub.

## COVID-19 əleyhinə peyvənd olunanların sayı açıqlanıb

Avqustun 16-da Azərbaycanda 251 nəfər yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə vaksinasiya olunub.




Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, gün ərzində birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 206, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 45 nəfər təşkil edib.

Azərbaycanda bu günə qədər vurulan vaksinlərin ümumi sayı 5 milyon 794 min 483, birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 3 milyon 420 min 144, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 2 milyon 374 min 339 nəfər təşkil edir.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Ağdamda ət və süd istehsalı artıb

Ağdam rayonunda kənd təsərrüfatının aparıcı sahələrindən olan heyvandarlıq stabil inkişaf edir. 2021-ci ilin yeddi ayında da heyvandarlıq sahəsində uğurlu nəticələr qazanılıb. Mal-qaranın cins tərkibi daha da yaxşılaşıb, heyvandarlıq məhsulları istehsalında artım qeydə alınıb.



Rayon Statistika İdarəsindən AZƏRTAC-a bildiriblər ki, 2021-ci ilin yanvar-iyul aylarında təsərrüfatlarda 2784,5 ton ət, 23 min 539,1 ton süd istehsal edilib. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə ət istehsalı 2,1 faiz, süd istehsalı 4,7 faiz artıb.

Heyvandarlıq məhsullarının istehsalının artmasında heyvanların cins tərkibinin yaxşılaşdırılması mühüm rol oynayır. Rayonda heyvandarlıq məhsulları istehsalının intensiv artmasına zəmin yaradan cins maldarlığın inkişafı üçün heyvanların süni mayalanması uğurla həyata keçirilir. 2021-ci ilin yeddi ayında 2620 baş inək və düyə süni yolla mayalandırılıb, 1746 baş cins tərkibi yaxşılaşdırılmış buzov alınıb.

## 11 min hektaradək sahədə payızlıq dənlilərin səpini proqnozlaşdırılır

Zaqatala rayonunun təsərrüfatlarında payızlıq bitkilərin səpini üçün yay şumunun çıxarılmasına başlanılıb. Qısa müddətdə təsərrüfatlarda 1320 hektar sahədə yay şumu qaldırılıb və bu iş davam etdirilir.

Səpin aparılacaq sahələrin şumlanmasına 72 şum traktoru cəlb olunub. Bu ilin payızında rayonda gələn ilin məhsulu üçün 11 min hektaradək sahədə payızlıq dənlilərin səpini proqnozlaşdırılır.

Bu barədə AZƏRTAC-ın bölgə müxbirinə Zaqatala Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun müdiri Vaqif Şabanov məlumat verib.

Qurum rəsmisinin sözlərinə görə, payızlıq bitkilərin səpininə sentyabrın üçüncü ongünlüyündə başlamaq nəzərdə tutulur.

Xatırladaq ki, builki mövsümdə zaqatalalı fermerlər 11 min 396 hektar taxıl sahəsindən 38 min 916 ton məhsul götürüblər. Hər hektara görə orta məhsuldarlıq 34,1 sentner təşkil edib. Taxıl istehsalı əvvəlki illə müqayisədə 3,8 min tondan çox artıb.

## Suvarma suyuna olan tələbatın qarşılanması üçün tədbirlər görülür

Zərdab rayonunda əkin sahələrinin, eləcə də həyətyanı sahələrin suvarma suyu ilə təminatının yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilir.

Rayon icra hakimiyyətindən AZƏRTAC-a verilən məlumatda bildirilib ki, ilin ötən dövründə suvarma suyu təminatı ilə əlaqədar xeyli iş görülüb. Belə ki, rayonda 14 ədəd nasos, 2 ədəd elektrik mühərriki, 1 dizel mühərriki, 0,4 kilometr dəmir-beton nov və beton kanallar təmir edilib, habelə 189,4, kilometr uzunluğunda suvarma kanalı lildən təmizlənib, beləliklə 41 min 683 hektardan çox sahə suvarma suyu ilə təmin olunub.

Rayonun kənd inzibati ərazi dairələrində də müəyyən tədbirlər həyata keçirilib. 88,1 kilometr təsərrüfatdaxili, 17,2 kilometr əsas kanallar lildən təmizlənib, 8,5 kilometr Şirəkeş kanalı qazılıb. Bu sahədə rayon icra hakimiyyətinin Məmmədqasımlı, Yarməmmədbağı, Pərvanlı, Çallı və Kəndəbil kənd inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin yerli bələdiyyələrlə əlaqəli işi də öz müsbət nəticəsini verib.

# Regionun iqtisadi güc mərkəzi Azərbaycandır

## Ermənistan bu reallığı qəbul etməyə məhkumdur

Postmüharibə dövründə qalib Azərbaycan sülhə və köklü islahatlara, ordusu darmadağın edilmiş işğalçı Ermənistan isə məğlubiyyətin şokundan dirçəlməsə də, danılmaz reallıqları nəzərə almadan müxtəlif güc mərkəzlərinin çaldığı havada dingildəyib onların işinə yaramağa çalışır. Ona görə də dünyanın siyasi səhnəsində bu dövlətin bəyanatları və atdığı addımlar məntiqsiz və hətta ermənilərin özləri üçün təhlükəli hesab oluna bilər.




Yerevan yenə də işğalçılıq ənənəsinə sadiq qalaraq yeni müttəfiqlərin axtarışına çıxır, sərsəm ideyaları və bəyanatları ilə bütün dünyanı Azərbaycanla üz-üzə qoymağa çalışır. Sosial şəbəkələrdə, internet resurslarında məhv edilmiş ordunun bəzi "komandir"ləri sinələrinə döyərək xəyallarındakı Gəncənin, Bakının işğalının "su içmək qədər asan" olduğundan dəm vurur, bu azmış kimi, ağızları köpüklənə-köpüklənə İstanbulun işğal edilməsindən danışırlar. Bir sözlə, işğalçı Ermənistan münaqişələrin, Azərbaycan isə iqtisadi islahatların dərinləşməsinə çalışır.

Məlum olduğu kimi, Prezident İlham Əliyev 7 iyul 2021-ci il tarixli fərmanı ilə iqtisadi rayonların yeni bölgüsünü təsdiqləmişdir. Bunacan isə müharibə qurtardığı gündən işğaldan azad edilmiş ərazilərin bərpası, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışının təmin edilməsi üçün böyük layihələr həyata keçirilməsinə başlanılmışdır. Bu baxımdan həmin ərazilərdə nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasında yeni iqtisadi rayonların yaradılması xüsusi əhəmiyyət kəsb edir.

Mütəxəssislər belə hesab edirlər ki, Azərbaycanın iqtisadi rayonlarının sayının 14-dək artırılması Qarabağ bölgəsinin sürətli inkişafına xidmət edir. Xüsusən Qarabağ (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər) və Şərqi Zəngəzur (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan) iqtisadi rayonlarının yaradılması Qarabağın iqtisadi dövriyyəyə qayıtması və regional kommunikasiyaların, o cümlədən Zəngəzur dəhlizinin açılması perspektivinə xidmət edən yeni reallıqlardır.

Prezidentin fərmanında da göstərilir ki, 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olan Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsi zəruridir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktorunun müavini Ramil Hüseyn isə Gəncə-Qazax və Aran iqtisadi rayonlarının tərkibinə yenidən baxılmasını da günün tələbi hesab edir: "Diqqət yetirsəniz görərsiniz ki, fərmanda azad olunmuş ərazilərin ölkəmizin iqtisadiyyatına reinteqrasiyası digər iqtisadi rayonlar, o cümlədən Gəncə-Qazax və Aran iqtisadi rayonları üzrə planlaşdırma işinin səmərəliyinin artırılmasını, iqtisadi idarəetmədə çevikliyin təmin olunmasını və bu məqsədlə həmin iqtisadi rayonların tərkibinə də yenidən baxılmasının zərurliyi vurğulanmışdır".

Aydın görünən odur ki, Azərbaycan postmüharibə dövrünün yaratdığı bütün imkanlardan istifadə edərək regionda davamlı sülhə və qarşılıqlı faydalı iqtisadi əməkdaşlığa üstünlük verir. Eyni zamanda Qarabağın bərpası və inkişafı istiqamətində həyata keçirilən tədbirlər sistemli davam edir.

Dərinə vardıqda Azərbaycanda aparılan bu islər mahiyyat etibarilə Ermənistan üçün də lazımdır. Amma əvəzində nə görürük? Faşist ideologiyası ilə iliyinədək zəhərlənən bu ölkənin siyasi elitası da, müxalifəti də, hətta biarbırcasına müharibəni uduzan yüksək çinli zabitləri də hərbi revanş haqqında fikirləşirlər. Dağlıq Qarabağda erməni silahlı dəstələrinin tör-töküntüləri postlar qurur, silahlı insidentlər törədirlər. Bu gün Ermənistandan Azərbaycan ərazilərinə yük maşınları ilə əsgərlər daşınır. Azərbaycanın sərhədlərin demarkasiyası ilə bağlı atdığı addımları isə bütün dünyaya Ermənistan ərazilərinin "işğal edilməsi" kimi təqdim olunur.

Bütün bunlara baxmayaraq, Azərbaycan işğalçı ölkə ilə kommunikasiyaların açılması istiqamətində səylərini əsirgəmir, regionda müharibənin yenidən körüklənməməsi üçün bütün siyasi alətlərdən yararlanmağa çalışır. Laçın yolunun sülhməramlıların nəzarətinə verilməsi erməni tərəfini Zəngəzur dəhlizinin maneəsiz açılmasına sövq etməli idi. Lakin Ermənistan bundan boyun qaçırmaq, imtina etmək üçün istənilən məkrli oyuna gedir, hətta belə bir bəndin üçtərəfli müqavilədə əksini tapmadığını bəyan etməkdən çəkinmir. Azmış kimi, Ermənistanın Müdafiə Nazirliyi "Ermənistan-Azərbaycan sərhədində vəziyyət, qarşı tərəfin təxribatları və buna qarşı durmaq üzrə tədbirlər" adlı müzakirə keçirir, Azərbaycanı Ermənistan sərhədlərini pozmaqda ittiham edir, orduya atəş açmaq əmri verir. Nikol Paşinyan ölkəsinin Azərbaycanla danışıqları bərpa etməyə hazır olduğunu dildə bəyan etsə də, reallıqda bunun üçün birbaşa Azərbaycana müraciət etmədən ATƏT-in Minsk qrupundan konkret təkliflər gözlədiyini bildirir. Söhbətin nədən getdiyi yəqin ki, heç kim üçün sirr deyil. Sirr olan 44 günlük savaşda başına "dəmir yumruq" dəymiş Ermənistanın sərfəli regional əməkdaşlıq əvəzinə, yenidən qarşıdurmaya getmək istəməsidir, xüsusən də həmin qarşıdurmada olan-qalanını da itirəcəyini bilsə də...

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Sığortaçılar Assosiasiyası pulların yuyulmasına qarşı mübarizə ilə bağlı təlim keçiriblər

Azərbaycan Mərkəzi Bankı və Azərbaycan Sığortaçılar Assosiasiyasının (ASA) təşkilatçılığı ilə ASA Tədris Mərkəzində sığorta şirkətlərinin əməkdaşları üçün daha bir əhəmiyyətli təlim təşkil olunub.

ASA-dan AZƏRTAC-a bildirilib ki, budəfəki təlim cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə mövzusuna həsr edilib. Ölkədə fəaliyyət göstərən 20 sığorta şirkətinin əməkdaşlarının iştirak etdiyi təlimdə pulların yuyulmasının mahiyyəti, xüsusiyyətləri, təzahür formaları, mexanizmi, alətləri, tipik sxemləri, eyni zamanda, bütün bu məqamların terrorçuluğun maliyyələşdirilməsi ilə əlaqəsi yönündə istiqamətlərə toxunulub. Təlimdə Azərbaycan Mərkəzi Bankının və ASA-ya üzv olan mütəxəssislərin çıxışları dinlənilib.

## Qeyri-neft məhsullarının ixrac olunduğu əsas ölkələr hansılardır

Cari ilin yanvar-iyul aylarında Azərbaycandan qeyri-neft məhsullarının ən çox ixrac olunduğu ölkələrin sırasında Rusiya, Türkiyə, İsveçrə, Gürcüstan və ABŞ qərarlaşıb.




Dövlət Gömrük Komitəsindən AZƏRTAC-a bildirilib ki, yeddi ayda Rusiyaya 467,8 milyon ABŞ dolları, Türkiyəyə 359,3 milyon dollar, İsveçrəyə 129,5 milyon dollar, Gürcüstana 94 milyon dollar, ABŞ-a isə 33,6 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac olunub.

## Azərbaycan İƏT ölkələrindən ən çox Türkiyəyə məhsul göndərib

Bu ilin yanvar-iyul aylarında Azərbaycanın ən çox məhsul ixrac etdiyi İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələri sırasında ilk üçlükdə Türkiyə, Tunis və İndoneziya qərarlaşıb.

Türkiyəyə ixrac 1 milyard 539,6 milyon ABŞ dolları, Tunisə 330,5 milyon dollar, İndoneziyaya isə 81,3 milyon dollardır.

AZƏRTAC Dövlət Gömrük Komitəsinə istinadla xəbər verir ki, keçən ilin müvafiq dövrünə nisbətən Türkiyə ilə ixracın dəyərində azalma, Tunis və İndoneziya ilə artım müşahidə olunub.

## Bostan sahələrindən 2645 ton məhsul yığılıb

Neftçala rayonunda bostan bitkilərinin tədarükü davam edir.



Rayon Statistika İdarəsindən AZƏRTAC-a verilən məlumata görə, cari ildə 84,9 hektar sahədə bostan bitkisi əkilib becərilib. Bu günə qədər 78,4 hektardan 2645 ton bostan məhsulu tədarük olunub. Bostan sahələrinin 59 hektarı qarpızın payın düşüb və 52,5 hektardan 2522,5 ton məhsul toplanılıb.

Bundan başqa, 25,9 hektar yemiş sahəsinin 25,9 hektarı yığılıb və 122,5 ton məhsul tədarük edilib.

# Peşəsini dəyişməsinə peşman deyil

## İxtisasca tikinti mühəndisi indi Biləsuvarda qabaqcıl pambıqçı kimi tanınır



Fazil Musayev maraqlı, amma çətin həyat yolu keçib. Gənclik illəri sovetlər birliyinin dağıldığı dövrə düşüb. Ali məktəbi bitirib tikinti mühəndisi ixtisasına yiyələnmişdi. O zaman, yəni keçən əsrin 90-cı illərində bütün sahələrdə olduğu kimi, tikinti-quruculuq sahəsindəki işlər də donmuşdu.

Özünə heç yanda bir iş tapa bilməyən F.Musayev böyüyüb boya-başa çatdığı Biləsuvarın Aşağı Cürəli kəndinə qayıdır. Doğma kənddə heç nə ona yad deyildi. Hələ orta məktəbdə oxuduğu illər kəndlərindəki kolxozun pambıq sahələrində alaq otlarını təmizləmişdi, suçulara kömək etmişdi, pambıq yığmışdı.

Odur ki, tərəddüd etmədən ailələrinin pay torpağını əkib-becərmək qərarına gəlir. Bilmədiklərini təcrübəli əkinçilərdən soruşub öyrənməkdən utanıb-çəkinmir. İnam, istək olan yerdə hər çətinlik insanın əlində acizdir, - deyiblər. Ürəklə işə başlayan, hər bir işi vaxtında və keyfiyyətlə görən Fazil elə birinci il yaxşı nəticə əldə edir. Bu sahədə dövlətin kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan mülkiyyətçilərə verdiyi subsidiyalar, etdiyi güzəştlər başqaları kimi onun da qolundan tuturdu. Digər tərəfdən, pambıqçılığın inkişafı üçün yaranan şirkətlər torpaq mülkiyyətçilərinə, fermerlərə hər cür əməli kömək göstərirdi. Bunlardan faydalanan F.Musayev əkin sahələrini ildən-ilə genişləndirir, icarəyə əlavə torpaq sahələri götürür.

Çəkdiyi zəhmət itmir. 2017-ci ildə ən yüksək nəticə - hər hektardan 50 sentnerdən çox məhsul əldə etdiyinə görə dövlət başçısının sərəncamı ilə birinci dərəcəli "Əmək" ordeni ilə təltif olunur. Amma o, dayanmır, qazandıqları ilə kifayətlənmir, uğurlarını artırmaq üçün daha səylə çalışır.

Bu çalışqanlıq ona Biləsuvarda adsan, şan-şöhrət qazandırır, rayonun "qəhrəman"ı olur. İşgüzarlığını, savadını, bacarığını görən "Yaşıl ada" şirkətinin rəhbərliyi Fazilə icraçı direktor vəzifəsində işləməyi təklif edir. O, fikirləşdikdən, götür-qoy etdikdən sonra təklifə razılıq verir.

Fazil Musayev cari il 266 hektarda çiyid səpmiş, becərməni bütün aqrotexniki tədbirləri görməklə vaxtında həyata keçirmişdir. Pambıq əkilən tarlalarda 4 dəfə kompleks becərmə, 3 dəfə suvarma aparmışdır. Xəstəliklərə və ziyanvericilərə qarşı mübarizə tədbirlərini də unutmayan Fazil hazırda son becərmə işlərini aparır.

Mütəxəssislər deyirlər ki, Biləsuvar rayonu üzrə ən yüksək məhsul Fazilin icraçı direktor olduğu "Yaşıl ada" təsərrüfatından gözlənilir. Həmin günə isə az qalır. Havaların isti keçməsi sahələrdə pambığın yığımına avqust ayının sonlarında başlanılacağından xəbər verir. F.Musayev isə hər hektardan 50 sentnerdən çox məhsul gözləyir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Şəhid ailələri və qazilərin evlə təminatına sosial tərəfdaşlardan mühüm dəstək

## Son iki ildə "Paşa Holdinq" və Kapital Bankın dəstəyi ilə bu kateqoriyadan olanlara 116 mənzil və fərdi ev verilib, 19 fərdi ev təmir etdirilib



Prezident İlham Əliyevin çağırışına uyğun olaraq ölkəmizdə özəl sektorun sosial məsuliyyət, həmrəylik prinsipinə əsaslanan fəaliyyəti son illərdə xeyli güclənib. Sosial məsələlərin həllində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə sosial tərəfdaşlıq müstəvisində yaxından iştirak edən şirkətlərin sırası getdikcə genişlənir.



Onların sırasında "Paşa Holdinq" və Kapital Bank bu sahədə aparılan işlərə dəyərli töhfələrini verirlər.

2019-2020-ci illərdə "Paşa Holdinq" tərəfindən ölkəmizin müxtəlif bölgələrində həssas əhali qruplarından olan şəxslərə məxsus 19 fərdi ev təmir etdirilib. Bu müddətdə şirkət Bakının Zabrat qəsəbəsində 4, bölgələrdə 34 fərdi ev inşa etdirərək Milli Qəhrəman və şəhid ailələrinə, qazilərə, digər həssas qruplardan olan şəxslərə təqdim edib. Həmçinin paytaxtın Əhmədli qəsəbəsində həssas qruplardan olan 10 ailənin mənzillərlə təminatını həyata keçirib.

Bu il də "Paşa Holdinq"in sosial sahəyə dəstək işləri davam etdirilir. Cari ildə şirkət tərəfindən ölkəmizin bölgələrində şəhid ailələri və müharibə əlilləri, digər həssas qruplar üçün 30 fərdi evin inşa etdirilməsi, 15 ailənin mənzillərlə təmin olunması nəzərdə tutulub.

Özəl sektorun sosial məsuliyyət çərçivəsində həssas qruplara dəstəyinin ən uğurlu nümunələrindən biri də Kapital Bank tərəfindən şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün Şirvan şəhərində 68 mənzilli yaşayış binasının inşa etdirilməsidir. Bununla ölkəmizdə şəhid ailələri və müharibə əlilləri üçün məhz özəl sektor tərəfindən ilk dəfə olaraq çoxmənzilli yaşayış binası inşa etdirilmiş oldu.

2020-ci ilin iyul ayında tikintisi yekunlaşan 4 mərtəbəli, 3 bloklu binada müasir tələblərə uyğun yaşayış şəraitinin yaradıldığı mənzillər (16-sı birotaqlı, 44-ü ikiotaqlı, qalanları üçotaqlı) həm Şirvan şəhərində, həm ətraf rayonlarda yaşayan müvafiq kateqoriyalardan olan vətəndaşların istifadəsinə təqdim edildi.

Beləliklə, son iki ildə - 2019-2020-ci illərdə "Paşa Holdinq" və Kapital Bankın dəstəyi ilə qeyd edilən kateqoriyalardan olanlara 116 mənzil və fərdi ev verilib, 19 fərdi ev təmir etdirilib.

## Alma ixracı artıb

Bu ilin yeddi ayında 27,5 min ton alma ixrac olunub.

AZƏRTAC Dövlət Gömrük Komitəsinə istinadən xəbər verir ki, ixrac edilən almanın dəyəri 12,6 milyon dollar təşkil edib.

Xatırladaq ki, ötən ilin eyni dövründə dəyəri 9,3 milyon dollar olmaqla 22,2 min ton alma ixrac olunub.

Cari ilin yanvar-iyul aylarında 7097 ton meşə fındığı ixrac olunub.

İxrac edilən meşə fındığının dəyəri 42,3 milyon dollar olub.

Xatırladaq ki, keçən ilin eyni dövründə dəyəri 57,8 milyon dollar olmaqla 9398 ton meşə fındığı ixrac edilib.







# Mədəniyyət





● Qarabağ Azərbaycandır!





# Şuşa abidələrinin bərpasına dövlət qayğısı

**Şuşa Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri, ölkəmizin mədəniyyət beşiyi, "Qafqazın konservatoriyası" olmuşdur. Şəhərin ərazisi tarixi abidələrlə zəngindir. Rəsmi məlumata görə, şəhərdə 549 qədim bina, ümumi uzunluğu 1203 metr olan daş döşənmiş küçələr, 17 məhəllə bulağı, 17 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr və qala divarları mövcud idi. O cümlədən 72 tarixi abidə, həmçinin bir sıra dövlət xadimlərinin və tanınmış şəxsiyyətlərin mülkləri, ev-müzeyləri vardır. Bu abidələrin çoxu XIX əsrdə yaşamış memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilmiş və həmin dövrün ən məşhur nəqqaşı Kərbəlayı Səfərəli tərəfindən zövqlə işlənmişdir.**

Ermənistanın Azərbaycana qarşı apardığı 30 illik işağalçılıq siyasəti nəticəsində buradakı tarixi-mədəniyyət abidələri yerləyeksan edilmişdir. Şuşanın işğal altında olduğu illər ərzində şəhərdə memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası, 160-dək mədəniyyət və tarixi abidə, 22 ümumtəhsil məktəbi, 7 uşaq bağçası, 8 mədəniyyət evi, 14 klub, 2 kinoteatr, 3 muzey dağıdılmış, məbəd və məscidlər təhqirə məruz qalmış, 20 kitabxana yandırılmışdır. Yerli memarlıq abidəsi hesab edilən binalar tamamilə məhv edilmiş, hətta görkəmli şəxsiyyətlərin büst və heykəlləri gülləbaran edilmişdir.

Şuşa işğaldan azad olunduqdan sonra Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva, bir çox ölkələrin qrup halında gələn nümayəndə heyətləri, politoloqlar, jurnalistlər, diaspor üzvləri və s. dəfələrlə Şuşaya səfər etmiş və qədim şəhərdə tarixi mədəni irsin erməni barbarları tərəfindən necə dağıdıldığının şahidi olmuşlar. Dövlət başçısı Şuşaya səfərləri zamanı ictimaiyyətlə görüşlərində və mətbuata müsahibələrində hər dəfə bu şəhərin tezliklə bərpa ediləcəyini bəyan etmişdir: "Mən demişəm ki, Şuşa nəinki Azərbaycanın, dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəkdir və buna nail olacağıq, 100 faiz". İşğaldan azad edildikdən sonra Şuşada başlanan quruculuq işləri bunu bir daha təsdiq edir.

Ulu Öndərin açılışında iştirak etdiyi Molla Pənah Vaqifin məqbərəsinin bərpa işlərini Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu həyata keçirib.

Dövlət başçısı bildirib ki, bütün işlər planlı şəkildə aparılmalı, Şuşanın tarixi siması saxlanılmalıdır. Bərpa işlərinin aparılması Şuşanın tarixi görkəminə xələl gətirməyəcək. Buradakı hər hansı bir tikili əvvəlkindən də keyfiyyətli bərpa edilərək Şuşanın tarixi-mədəni irsinə ikinci həyat veriləcək. Mütəxəssislər, memarlar, tarixçilər, şuşalılar özləri deyəcəklər ki, bu şəhəri necə görmək istəyirlər, çünki bu, onların şəhəridir. Şuşanın əsl tarixi simasının və qədim mədəni abidələrinin bərpası Azərbaycanın memarlıq üslubunu əks etdirməlidir. Şuşada bütün işlər görüləndən sonra şəhər sakinləri oraya qayıdacaqlar.

Şuşada indi başqa növraq, başqa ovqat yaşanır. Dövlət başçısının sərəncam və tövsiyələrinə əsasən, Şuşanın tarixi-mədəni irsinə ikinci həyat verilir. Şəhərin mədəni ruhu geri qaytarılır, tarixi görkəmi bərpa edilir. Burada Azərbaycanın mədəniyyət tarixinin çox vacib örnəklərinin bərpa olunması öz tariximizə, mədəniyyətimizə, abidələrimizə sahib çıxmağımızın nümunəsidir.

Bu gün işğaldan azad olunmuş ərazilərimizdə Azərbaycan dövləti tərəfindən həyata keçirilən nəhəng quruculuq layihələri, o cümlədən Şuşada aparılan bərpa və yenidənqurma işləri şəhərin tarixi simasının bərpa edilməsi məqsədilə, onun orijinal memarlıq üslubuna uyğun olaraq gerçəkləşdirilir.

Heydər Əliyev Fondu Şuşada Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidlərinin təmir-bərpa işlərini aparır. Hər üç məscidin memarı Kərbəlayi Səfixan Qarabaği olmuşdur və məscidlər ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələrinin siyahısındadır.

Yuxarı Gövhər ağa məscidinin interyeri məhv edilmiş, minarələrinin dekoru zədələnmiş, örtükləri dağıdılmışdır. Məscidin birinci mərhələdə bərpası başa çatıb, ikinci mərhələ üzrə işlər aparılır. Bu mərhələdə məscidin daşları ilkin layihəyə uyğun olaraq dəyişdirilir. Məscid ərazisində dağıdılmış mədrəsə də bərpa ediləcək.

İşğal dövründə dağıntıya məruz qalan Aşağı Gövhər ağa məscidində isə xarici ekspertlər qiymətləndirmə işləri aparıblar.

Saatlı məhəlləsində yerləşən tarixi Saatlı məscidi də Şuşa şəhəri Ermənistan tərəfindən işğal olunduqdan sonra ciddi dağıntılara məruz qalıb.

Hazırda Qazançı kilsəsi də bərpa edilir. Bütün digər tarix-mədəniyyət abidələrimiz kimi. Qazançı kilsəsinin ilkin bədii-estetik görkəminə uyğun bərpa edilməsi nəzərdə tutulur. Bu, elmi-praktiki-tədqiqat fəaliyyəti olmaqla abidənin hərtərəfli təhlilini, memarlıq, tarixilik xüsusiyyətlərinin arasdırılmasını ehtiva edir. Hazırlanan bərpa layihəsi abidənin XIX əsrdəki ilkin-orijinal görkəminə qaytarılmasına imkan verir.

Şuşanın Qazançı kilsəsinin bərpa edilməsini həzm edə bilməyən işğalçı, terrorçu Ermənistan bizə qarşı şər-böhtan atır, cəfəng iddialar irəli sürməyə çalışır. Lakin bunlar hamısı əbəsdir və "Böyük Qayıdış" çərçivəsində abidələrimiz bərpa olunduqca, tarixi-mədəni irsimiz azad olunmuş ərazilərə qaytarıldıqca Azərbaycan dövlətinin sülhə, inkişafa və tərəqqiyə yönəlmiş siyasəti öz təntənəsini yaşayır.

Heydər Əliyev Fondu işğaldan azad edilmiş Şuşa şəhərində daha bir layihənin icrasına başlayıb. Hazırda şəhərdə Yaradıcılıq Mərkəzinin, Rəsm və Xalçaçılıq qalereyalarının təmir-bərpa işləri həyata keçirilir.

Vaxtilə Ağa Qəhrəman Mirsiyab oğlunun karvansarası kimi tanınan Şuşa Yaradıcılıq Mərkəzinin yerləşdiyi bina ölkə əhəmiyyətli yerli tarixi memarlıq abidələri siyahısındadır.

Şuşa Xalçaçılıq Qalereyası isə keçmiş Şuşa Xalça Muzeyinin binasında yerləşəcək. Binaya işğal dövründə ciddi ziyan dəyib.

Hazırda təmir-bərpa işləri ilə yanaşı, hər üç binada sərgilənəcək əsərlərin də seçimi diqqətdədir. İlk növbədə, Şuşada Azərbaycan rəssamlarının əsərləri, Qarabağın işğaldan əvvəl və sonrakı görüntülərini əks etdirən əsərlər, həmçinin xalça eksponatları yer alacaq.

Təbii ki, Şuşanın tarixi-mədəni irsinə qayğı istiqamətində bərpasına baslanan abidələr bununla yekunlaşmır. Şuşa abidələrinin bərpasına dövlət qayğısı və nəzarəti daim gündəmdədir. Yaxın vaxtlarda Şuşanın bütün tarixi, mədəni və dini abidələri yüksək səviyyədə bərpa edilib öz əvvəlki görkəminə qaytarılacaq, bu qədim şəhər Azərbaycanın mədəniyyət paytaxtı missiyasını uğurla yerinə yetirəcək.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

● Kənd turizmi

# Qonaqları məmnun edən məkan

**Ölkəmizin qərb bölgəsində Kiçik Qafqaz dağlarının qoynunda yerləşən Gədəbəy əsrarəngiz təbiəti ilə məşhurdur. Buradakı meşə zolaqları, çaylar, bulaqlar, mineral sular, flora və fauna, yeraltı, yerüstü sərvətlər, abidələr, bir sözlə, bu coğrafi ərazinin varlığı aurası ilə insanın həyat eşqini artırır, yaşamağa, qurub-yaratmağa həvəsləndirir.**




Pandemiya təhlükəsinin qarşısının alınması məqsədilə qaydalara ciddi riayət tələb edildiyi bir vaxtda da Gədəbəydə şəhərin mərkəzində ölkənin müxtəlif bölgələrindən gələn yerli turistlərin çoxluğu müşahidə olunur, respublikamızın müxtəlif bölgələrindən yayın başgicəlləndirən istisindən yaxa qurtarmaq istəyən çoxlu sayda ailələr istər fərdi, istərsə də turizm xətti ilə Gədəbəyə üz tuturlar.

Yamyaşıl yaylaqlar, geniş çəmənliklər, sıx meşələr, dağların zirvəsindən yamaclar boyunca axan kiçik çaylar, şəlalələr, göllər, buz bulaqlar, həmçinin qədim və zəngin tarixi Gədəbəyi yerli və xarici turistlər üçün cəlbedici məkana çevirir. Son illərdə rayonda yaradılan infrastruktur isə istənilən sayda yerli və əcnəbi qonaqların burada qalmasına, eləcə də istirahətlərindən mənəvi zövq almasına imkan yaradır. Artıq neçə ildir ki, Gədəbəydə turistləri qarşılamaq və onlara yüksək mədəni xidmət göstərmək üçün müasir istirahət məkanları fəaliyyət göstərir. Bu mərkəzlərdə qonaqların məmnunluğunu qazanmaq üçün bir-birindən maraqlı və münasib xidmətlər təklif olunur.

Rayonda turizmin müxtəlif sahələri ilə yanaşı, kənd turizminə də nəzərəçarpacaq dərəcədə diqqət yetirilir, ildən-ilə inkişaf etdirilir. Demək olar ki, rayonda yaşayan əksər ailələr potensial olaraq evlərində 4-5 nəfər qonaq qəbul etmək və onlara mədəni qulluq etmək imkanına malikdirlər. Gədəbəyə qonşu Şəmkir, Qazax, Tovuz, Samux, Ağstafa, Goranboy rayonlarından, xüsusən də aran bölgəsindəki kənd və qəsəbələrdən, hətta Gəncə və Yevlax şəhərlərindən xoş istirahət etməyə gələn ailələr var. Bunun digər bir səbəbi də yerli sakinlərin mehriban və səmimi rəftarıdır ki, onları bu yerlərdə ev kirayələməyə və istirahətlərini kənd ailələri ilə birgə keçirməyə üstünlük verirlər.

**Rayonun Alnabat kənd sakini Tovuz Əliyevanın dediklərindən:**

- Kəndimiz Şahdağın ətəklərində, çox səfalı bir ərazidə yerləşir. Sovet dönəmində, lap elə on-on beş il bundan əvvələ kimi bu yerlərə yayda çox nadir hallarda qonaq-qara gələrdi, o da olsa-olsa, xeyirdə-şərdə iştirak etmək üçün uzaq şəhərlərdə yaşayan kəndçilərimizdən olardı. Amma son illər, xüsusən də rayonumuzun, eləcə də kəndarası magistral yollar düzələndən sonra buralarda yayda boş ev tapmaq olmur. Çoxları turist deyir, biz yerli adamlar onlara qonaq deyirik, ailəliklə gəlib, istirahət edirlər. Həm boş qalan evlərimizin, həm də camaatımızın üzü gülür. Çünki boluna-bol evimizin kirayə haqqını verirlər, camaatımız qapısının meyvəsini, tərəvəzini bazarda satmağa ehtiyac görmür. Elə kənddəcə qaymağı olan qaymağını, qatığı olan qatığını, südünü, balını, kartofunu, yumurtasını, beçəsini, nəyi varsa, elə qonaqlara münasib qiymətlərə satırlar. Alan da razı qalır, satan da. Kəndimizdə bu bolluq payızın orta ayına kimi davam edir. Bizə bu şəraiti yaradan dövlət başçısına, evimizin içindəcə bizə bu ruzunu qazandıranlara min dəfə çox sağ ol deyirik.

**Goranboy rayonu, Dəliməmmədəli şəhər sakini Elşən Əliyevin dediklərindən:**

- İki ildir yayda ailəlikcə Gədəbəyə, Alnabat kəndinə istirahətə gedirik. Orada olduğumuz müddətdə maşınla rayonun müxtəlif kəndlərinə bulaq başına, çay kənarına, meşə gəzintisinə çıxırıq.

Yeri gəlmişkən bir məsələyə də diqqət yetirilməsini vacib bilirik. Yaxşı olardı ki, kəndin tanınmış şəxsiyyətlərinin, şəhidlik zirvəsinə yüksələn qəhrəmanlarının kənddə xatirə lövhələri yaradılaydı. Bu turistlər üçün maraqlı olardı.

Turistləri Gədəbəyə cəlb edən başlıca amillərdən birincisi bu yerlərin həm də qədim və zəngin tarixə şahidlik etməsidir. Dağların zirvəsində, sərt yamaclarda, sıx meşəliklərin ortasında tikilən möhtəşəm qalalar, qalaçalar, məbədlər, körpülər və digər tarixi abidələr Gədəbəyin turizm əhəmiyyətini daha da artıran və bu yerləri hər kəs üçün unudulmaz edən əsas məkanlardır.

*R.SALMANLI,*
*"Azərbaycan"*

● Klassik irsimizdən

# Zamana qalib gələn şair

**Çoxu zamanında şeir yazsa da, onlardan azı tarixin yaddaşında şair kimi qalır. Onun süzgəcindən keçmək hər kəsin hünəri deyil. Əsrlər ötdükcə, əksəriyyət layiq olduğu dəyəri alır. Layiqlilərin mükafatı isə unudulmazlıqdır.**



Ancaq tarixi insafsızlıqda ittiham etmək də doğru olmaz. Çünki bəzən bircə misrası, ya beyti ilə də yaddaşlarda əbədi qalanlar olur. Fatma xanım Kəminənin də əsərlərinin çoxu zamanın enişli-yoxuşlu, keşməkeşli yollarında düşüb itsə də, qalanların onu Azərbaycan ədəbiyyatında XIX əsrin istedadlı şairlərindən biri olaraq tanıtmağa gücü, qüdrəti yetir.

## Mirzə Bəybaba bəyin istəkli qızı

Fatma xanım Kəminənin həyat və yaradıcılığı barədə XIX əsr təzkirələrində az da olsa, məlumat qalıb. Mir Möhsün Nəvvab "Təzkireyi-Nəvvab" əsərində Fatma xanımın dörd yüzə yaxın şeir yazdığını bildirib. O, "Təzkireyi-Nəvvab" kitabına Fatma xanım Kəminənin şeirlərini də daxil edib.

Firidun bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları" adlı kitabında və digər mənbələrdə də Fatma xanım Kəminənin adı çəkilib, yaradıcılığı barədə qısa məlumat verilib.

O, "Fəna" təxəllüsü ilə şeirlər yazan Mirzə Bəybaba bəyin qızı idi. Atası mədrəsə təhsili alıb. Adının əvvəlinə "Mirzə"ni də savadına görə əlavə ediblər. Mirzə Bəybaba mahir xəttat idi. Şuşa şairlərinin seçmə əsərlərinin əlyazma toplusunu tərtib edib, bir neçə kitabın üzünü köçürüb. Xanın yanında katib işləyib.

Mirzə Bəybaba bəy Cahan xanımla evlənib, Mehdi bəy, Yəhya bəy adlı oğulları, Fatma xanım adlı qızı olub. Həmin o qız barəsində Mir Möhsün Nəvvab "Təzkireyi-Nəvvab" kitabında belə yazıb: "Mirzə Fatma mərhum Mirzə Bəybaba Əlyarbəyzadə oğlu Tahirzadənin istəkli qızı olub. Qarabağın Şuşa əhalisindəndir".

## Mirzə Fatma xanım...

Fatma xanım 1841-ci ildə Şuşa şəhərində Firudin bəy Köçərlinin təbirincə desək, "Qafqaz qitəsinin Şirazı mənziləsində" dünyaya göz açıb. Mollaxana təhsili alıb, fars dilini öyrənib. Savadına, ağlına, zəkasına görə dövrünün ziyalılarının ehtiramını qazanıb, ona "Mirzə Fatma xanım" deyə müraciət ediblər.

Mirzə Bəybaba Fəna adı ilə tanınan atası kimi Fatma xanım da şair ruhlu idi. Sənət beşiyi sayılan Şuşanın şeir, musiqi mühiti ruhunu pərvazlandırıb. Mirzə Bəybaba Fəna kimi savadlı, hörmətli, poeziya vurğunu şairin ocağında boya-başa çatan Fatma xanım kiçik yaşlarından ədəbiyyata maraq göstərib. Yalnız ana dilində deyil, mükəmməl bildiyi fars dilində də əsərlər yazıb. Atası kimi onu da şeirləri tanıdıb. Dövrünün məşhur Azərbaycan şairləri sırasında Fatma xanımın adı çəkilib. O, dövrdaşları olan bir çox aşığın şeirlərinə nəzirələr də yazıb. Bizə onu şair kimi tanıdan isə, əsasən, günümüzə gəlib çatan klassik şəkildə yazılmış əsərləridir.

## "Əcəb sevdadı bu, sevdayə düşdüm"...

Poeziyanın sevdasına düşmüş Fatma xanım Kəminənin əsərlərinin məzmun və formasının müəyyənləşməsində fəal iştirakçısı olduğu "Məclisi-üns" və "Məclisi-fəramuşan" ədəbi məclislərinin, bu məclislərdə birlikdə iştirak etdiyi, qəzəllərində də minnətdarlıq hissi ilə yad etdiyi sənət dostları Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Mirzə Rəim Fəna və başqa Qarabağ şairlərinin mühüm rolu vardı. Ancaq onun Məhəmməd Füzuli lirikasına vurğunluğu daim olub. Ümumiyyətlə, Fatma xanım Kəminə qəzəllərini klassik Şərq poeziyasının ənənəvi mövzularında qələmə alıb. Ancaq şairə bu əsərlər vasitəsilə oxucusuna könül dünyasını, duyğularını, düşüncələrini bəyan edə bilib.

Azərbaycan və fars dillərində qələmə aldığı qəzəllərində o, gözəlliyi və məhəbbəti tərənnüm edib. Bədii təsvir vasitələrindən məharətlə istifadə edən müəllifin qəlbindəki incə, zərif duyğular, o insani hissləri süsləyir, onları daha da ülviləşdirir.

*Əcəb sevdadı bu, sevdayə düşdüm,*
*Rəhi-eşqin tutub qovğayə düşdüm.*
*Nə dünyada gəzib kamə irişdim,*
*Nə fikri-yar ol üqbayə düşdüm.*

Klassik ədəbi irsə sədaqət yaradıcılığının başlıca qayəsi, əsas dəstxəti olan şairə şifahi xalq ədəbiyyatından, folklor nümunələrindən də bəhrələnib, yeri gəldikdə onlardan istifadə edib.

Şair, təzkirəçi Məhəmməd ağa Müctəhidzadə "Riyazül-aşiqin" əsərində Fatma xanım Kəminəni Məhsəti, Nigar xanım, Nurcahan bəyim kimi şairlərə tən tutub. O, Fatma xanımın divanı olduğunu bildirənlərə nəinki haqq qazandırıb, həmin divanı gördüyünü yazıb.

Şairin divanı olduğunu qeyd edən Şuşa şairlərindən İsgəndər Rüstəmbəyov isə bildirib ki, hələ 1883-cü ildə Fatma xanım Kəminə öz divanını "oxuyub feyziyab olmaq üçün bəylərə göndərmişdir". Bəylər onun divanını oxuyublar. Fatma xanıma fikirlərini bəyan etməyi şair Süleyman bəyın öhdəsinə buraxıblar. Süleyman bəy bu münasibətlə qəzəlində yazıb:

*Ey şairə, ərbabi-süxən, ismi Kəminə,*
*Fəxrüşşüərasan, sənə yox burda qərinə.*

Atası Fatma xanımın ilk sənət müəllimi sayılır. Ancaq o, bütün ömrü boyu öyrənib. Fatma xanım Kəminə Şuşada Mir Mövsün Nəvvabın başçılıq etdiyi "Məclisi-fəramuşan" və şair Xurşudbanu Natəvanın başçılıq etdiyi "Məclisi-üns" ədəbi məclislərində iştirak edib. Ən fəal üzvlərindən olduğu bu ədəbi məclislər onun şair kimi püxtələşməsində böyük rol oynayıb. Müasirləri olan şairlərin çoxu ilə həmsöhbət olsa da, şeirləşsə də, Fatma xanım Kəminənin dünyasında Xurşidbanu Natəvanın yeri bambaşqa olub. Otuz il xeyirdə-şərdə, şeir və musiqi məclislərində birgə iştirak ediblər. Bir-birilərinə nəzirələr, qəzəl janrında məktublar yazıblar. Ancaq onlar yalnız sənət yoldaşı deyildilər, həm də yaxın rəfiqə, vəfalı dost, ürək sirdaşı, həmdərd idilər.

Xurşidbanu Natəvanın oğlu Abbas gənc yaşda vəfat edəndə ən dərdli, qəlbi yaralı günlərində Fatma xanım onun kədərinə şərik olub. Fatma xanım Kəminə o ağır dərdi, iztirabı belə ifadə edib:

*Natəvanın gözünün nuru Abbas almadı kam,*
*Bircə an olmadı rahət, ömürü oldu tamam.*
*Çox təəssüf ki, pənah bürcünü Ay tərk elədi,*
*Möhnət üz verdi seyid nəslinə bir nəhs axşam.*

Nakam oğlunun itkisi ilə yanıb-qovrulan Xan qızı "Ölürəm" rədifli qəzəlində yazırdı:

*Varımdı sinədə dərdü qəmi-nəhan ölürəm,*
*Fəda olum sənə, gəl, eylə imtəhan ölürəm.*

Bu kədərli, ələmli misralardan qəlbinə atəş düşən Fatma xanım Kəminə sənət və ürək dostuna üz tutub deyirdi:

*Mərizi-eşqə əlac eyləməz təbib, ölmə!*
*Bu dərdə carə edər visləti-həbib, ölmə!*
*Visalə talib olan aşiqə bəla yetişir,*
*Fəraqə səbr elə, sən munca bişəkib, ölmə!*

## "...mülayim və xoşrəftar bir nadireyi-zəmanə"

Fatma xanım Kəminəni müasirləri Şuşada böyük nüfuza malik, qətiyyətli, kişilərin iştirak etdiyi məclisdə üzüaçıq oturan, yeri gələndə, öz fikirlərini söyləyib, arxasında mərdmərdanə dayanan qadın kimi xatırlayıblar.

Firudin bəy Köçərli "Azərbaycan ədəbiyyatı" kitabında Fatma xanımın şəxsiyyəti və yaradıcılığı barədə yüksək fikirlər bildirib, onu "Qarabağın üçüncü şaireyi-möhtərəməsi" adlandırıb.

Haqqında yazılanlardan məlum olur ki, Fatma xanımın qohumları da Şuşada sayılıb-seçiliblər. Xalq yazıçısı, ədəbiyyatşünas Əzizə Cəfərzadə qeyd edib: "Onlardan bir neçə hərbçi zabitlər yetişmişdirsə də, əksəriyyəti ziyalıdır. Bu ziyalılar zabitlər arasında hətta inqilabçı kimi də tanınmışdılar. Kəminənin qayınlarından Hacı bəy Sultanov Türkmənistanda, Fərəc bəy Sultanov Qafqazda azadlıq uğrunda mübarizə aparan insanlar kimi tanınmışlar. Həyat yoldaşı Sadıq bəy Mirzeynal oğlu isə Füzuli rayonunun Saracıq kəndindən idi. Onların Əşrəf bəy və Rəşid bəy adlı iki oğlu, Tutu, Humay və Qumru adlı üç qızı olub. Bu nəslə mənsub olan övladların çoxu öz işləri və əməlləri ilə həmişə seçilən məşhur simalar kimi tanınıb".

Fatma xanım Kəminə 1898-ci ilin sentyabrında Şuşada vəfat edib. Şəhərin Mirzə Həsən qəbiristanlığında dəfn olunub. Onun dünyadan gedişini vaxtsız sayanlar dərdə, qəmə batıblar. Fatma xanım Kəminənin ölümünü ağır itki kimi qarşılayanlardan biri də Firudin bəy Köçərli olub. O, öz kədərini belə qələmə alıb: "Fatma xanım həqiqətdə çox gözəl və zərif bir can idi. Zahiri gözəlliyinə müvafiq batini və mənəvi tərəfdən dəxi əxlaqihəsənə sahibəsi olub, ziyadə xoşxülq, mülayimə və xoşrəftar bir nadireyi-zəmanə idi ki, onun vəfatı cümlə-şüəranü üzrəfayi-Qarabağda böyük bir yas oldu".

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# AZAL reyslərində IATA Travel Pass tətbiqinin sınaqdan keçirilməsi müddəti uzadıldı

"Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətinin məlumatına görə, pandemiya dövründə səyahəti asanlaşdırmağa imkan verən IATA Travel Pass mobil tətbiqinin sınaq müddəti 20 sentyabr 2021-ci ilə qədər uzadılır.

Smartfonlarda quraşdırılmış və sərnişinin sağlamlığı haqqında uçuş üçün lazım olan bütün məlumatları ehtiva edən rəqəmsal IATA Travel Pass, uçuşqabağı rəsmiyyətləri asanlaşdırır. Hazırda IATA Travel Pass tətbiqini AZAL və "Buta Airways"in aşağıdakı reyslərin sərnişinləri yükləyə bilərlər:



- AZAL - Bakı - İstanbul - Bakı (GYD-IST-GYD)
- AZAL - Bakı - Moskva - Bakı (GYD-DME-GYD)
- Buta Airways - Bakı - İstanbul - Bakı (GYD-SAW-GYD)
- Buta Airways - Bakı - Jukovski - Bakı (GYD-ZIA-GYD)

Tətbiqin xidmətləri Azərbaycandan bu reyslərlə yola düşən bütün sərnişinlər və ölkəyə gələn Azərbaycan vətəndaşları üçün mümkündür.

IATA Travel Pass tətbiqi vasitəsilə rəqəmsal pasportu təqdim edən sərnişinlərə qeydiyyat masasında prioritet qaydada xidmət göstəriləcək. Onlar, eyni zamanda, Heydər Əliyev Beynəlxalq Aeroportuna gəliş zamanı sərhəd nəzarətindən prioritet qaydada keçid xidmətlərindən (FastTrack) istifadə edə biləcəklər.

AZAL və "Buta Airways" reyslərində IATA Travel Pass tətbiqin sınaqdan keçirilməsində iştirak edən AZAL Miles bonus proqramının hər bir iştirakçısına əlavə 250 bonus mil hesablanacaq.

Bundan əlavə, Bakıdan yola düşən sərnişinlər, Travel Pass proqramına qoşulmuş klinikalarda və laboratoriyalarda PCR test müayinəsinə güzəşt əldə edəcəklər.

iOS (13.2 və daha yüksək versiyası) və Android (6.0 və daha yüksək versiyası) bazasında mobil cihazlar üçün IATA Travel Pass tətbiqini aşağıdakı keçidlər vasitəsilə yükləyə bilərsiniz:

● Apple AppStore:
https://apps.apple.com/us/app/iata-travel-pass/id1533417649
● Google Play:
https://play.google.com/store/apps/details?id=org.iata.tpa

Qeyd etmək lazımdır ki, IATA Travel Pass tətbiqi sərnişinlərin fərdi məlumatlarının icazəsiz istifadədən qorunması nəzərə alınmaqla hazırlanmışdır. Şəxsi məlumatlar IATA serverlərində və ya digər bulud xidmətlərində saxlanılmır ki, bu da onların sızma riskini minimuma endirir.

Tətbiqin istifadəsinə dair ətraflı təlimat və dəvət kodu ilə aviaşirkətin saytında aşağıdakı linkdən keçid edərək tanış olmaq mümkündür:
https://www.azal.az/az/information/iata-travel-pass

IATA Travel Pass tətbiqinin necə işlədiyi məlumatı ilə qısaca bu videoda tanış ola bilərsiniz:
https://youtu.be/wKYaPOEyGGA


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərmətbuatyayımı" ASC | (012) 440-46-94, (012) 441-19-91 |
| "Azərpoçt" ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Kaspi" MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


Təkrar

## Göygöl Rayon İcra Hakimiyyətinin Göygöl şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyi 2021-ci il üçün açıq tender elan edir

Göygöl şəhər Şəhidlər xiyabanında əsaslı təmir işlərinin aparılması

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq göstərilən LOT üzrə təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

- aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti.

Müqavilənin vaxtında yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderlə əlaqədar məlumat almaq üçün maraqlananlar Tender komissiyasına müraciət edə bilərlər.

Ünvan: Göygöl şəhəri, S.Hacıyev küçəsi, 42
Telefon: 022-205-23-69; (050) 681-61-50
Əlaqələndirici şəxs: Allahverdiyeva Fəridə Mayıl qızı

Maraqlananlar aşağıdakı məbləğdə iştirak haqqını köçürdükdən sonra Əsas şərtlər toplusunu yuxarıda göstərilən ünvandan ala bilərlər.

İştirak haqqı - 450 manat. İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.

**Təşkilat: Göygöl Rayon İHB-nin Göygöl şəhər İƏD-si üzrə nümayəndəliyi**
**HESAB: AZ93CTRE00000000000002511232**
**VÖEN: 7600050571**
**BANK: DÖVLƏT XƏZİNƏDARLIQ AGENTLİYİ**
**Kod: 210005**
**VÖEN BANK: 1401555071**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T. CTREAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında məlumat;*
- *işləri yerinə yetirmək üçün potensial imkanları haqqında məlumat;*
- *vergilərə və digər icbari ödənişlərə dair borcların olmaması barədə arayış;*
- *tender təkliflərinin təminatı (zərflərin açıldığı tarixdən sonra 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklif qiymətinin 1 faizi həcmində bank zəmanəti (zərflərin açıldığı gündən sonra 60 bank günü qüvvədə olmalıdır).*

İddiaçılar tələb olunan sənədləri 31.08.2021-ci il saat 12:00-dək, tender təklifi və bank zəmanətini isə 08.09.2021-ci il saat 12:00-dək təqdim etməlidirlər.

Tender zərfləri 09.09.2021-ci il saat 12:00-da açılacaqdır.

***Tender komissiyası***


# Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 17.08.2021-ci il tarixi saat 23:00-dan etibarən 18.08.2021-ci il tarixi səhər saatlarınadək bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


## BİLDİRİŞ

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən 07 may 2021-ci il tarixdə **www.etender.gov.az** portalında və "Azərbaycan" qəzetində elan olunmuş "Birdəfəlik karton istehsalı ilə bağlı daxili bazar istehlakının öyrənilməsi layihəsi üzrə daxili bazar araşdırması ilə əlaqədar məsləhət xidmətinin satın alınması" ilə bağlı keçirilmiş açıq tenderdə "ALLİANCE CONSULTİNG GROUP AZERBAİJAN" MMC qalib elan olunmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçiriləcəkdir.

Ağdam rayonunun Quzanlı qəsəbəsində Ağdam Uşaq və Ailələrə Dəstək Mərkəzinin yeni binasının tikintisi məqsədilə layihə-smeta sənədlərinin hazırlanması

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını Portal vasitəsilə göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Təkliflərin qiymətləndirilməsi zamanı aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi nəzərə alınmaqla.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Azərbaycan Beynəlxalq Bankı **("ASAN ödəniş" ilə Portal vasitəsilə ödəniş olunmalıdır)**

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi**
**Hesab: AZ71CTRE00000000000002318501**
**VÖEN: 1700332731**
**Fond-7**
**Kitab nömrəsi-002306-2318501;**
**Funksional təsnifat-00113;**
**İqtisadi təsnifat-142330 (sair daxilolmalar)**
**İştirak haqqı -300 manat**
**İştirak haqqı heç bir halda gaytarılmır.**

Bütün iddiaçılar prosedurda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri Portal vasitəsilə **06.09.2021-ci il saat 13:00-a** kimi təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat;*
- *müvafiq işlərin görülməsi üçün icazənin (lisenziyanın) olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iddiaçının işləri yerinə yetirmək üçün potensial imkanları və maddi-texniki bazası haqqında yazılı məlumat;*
- *tender təklifi sənədi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində (təklifin təminatı) bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisasa dair sənədlərini **06.09.2021-ci il tarixə kimi** və tender təklifi ilə bank təminatı sənədlərini **14 sentyabr 2021-ci il saat 16:00-a qədər** Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **15 sentyabr 2021-ci il saat 12:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

# Abşeron yarımadasının bəzi yerlərində qısamüddətli yağış yağacağı gözlənilir

Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun Abşeron yarımadasında gecə 23-25°, gündüz 32-36° isti, Bakıda gecə 23-25 isti, gündüz 33-35° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 761 millimetr civə sütunundan 758 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 60-70, gündüz 30-35 faiz təşkil edəcək.

Abşeron çimərliklərində şimal-şərq küləyi əsəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 26-27° isti, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda isə 27-28° isti olacaq.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, avqustun 17-də Abşeron yarımadasında meteoroloji amillərin zəif və mülayim tərəddüdü gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı, dolu düşəcəyi proqnozlaşdırılır. Şərq küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 19-24°, gündüz 34-38° isti, dağlarda gecə 14-19°, gündüz 23-28° isti olacağı bildirilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz dağlıq ərazilərdə şimşək çaxacağı, yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu gecə 18-23°, gündüz 33-38° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz dağlıq ərazilərdə şimşək çaxacağı, yağış yağacağı ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək, arabir sürətlənəcək. Havanın temperaturunun gecə 14-19°, gündüz 23-28° isti olacağı proqnozlaşdırılır.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 19-24°, gündüz 33-37° isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Dolu düşəcəyi ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək, arabir sürətlənəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 29-34° isti, dağlarda gecə 10-15°, gündüz 19-24° isti olacağı ehtimal edilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 19-24°, gündüz 34-38° isti olacağı ehtimalı var.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava yağmursuz keçəcək. Səhər dağlarda duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-24°, gündüz 31-36° isti, dağlarda gecə 17-19°, gündüz 24-29° isti olacağı gözlənilir.

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti ərzaq soyuducusu sisteminə quraşdırmaq üçün condenserin (soyuducu) satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 23 avqust 2021-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1263.**

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin Aparat rəhbərinin müavini Cavid Əbdül-Qədirova əzizi
**İSMAYIL ƏBDÜL-QƏDİROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi "Deloitte & Touche" MMC-nin direktoru Nuran Kərimova qardaşı
**AZƏR KƏRİMOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət İqtisad Universitetinin kollektivi UNEC-in Humanitar fənlər kafedrasının məsləhətçi-professoru
**ZAHİD İSMAYIL OĞLU MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun 7 saylı Regional Ərazi Filialının direktoru
**AĞAVALEH AĞAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının kollektivi kafedranın dosenti, hüquq üzrə fəlsəfə doktoru Asif Qədirova oğlu
**MEHDİNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin birləşmiş həmkarlar ittifaqı komitəsinin sədri Fuad Məmmədova anası
**SÜRƏYYA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 4914
Sifariş 1506
Qiyməti 40 qəpik